

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## "Qərbi Azərbaycan icmasının öz vətəninə qayıtmaq hüququ var"



4

# İLHAM ƏLİYEV: "Müharibədə qalib gəlmək mənim həyatımın, siyasi həyatımın missiyası idi"



2

*Tarixin bütün dönəmlərində "güclü ölkənin güclü, qətiyyətli lideri də güclü olur" fikri öz təsdiqin tapmışdır. Belə ki, bəşər tarixinin son onillikləri müharibələrlə dolu olduğu bir zamanda hələ heç bir dövlət başçısı bu müharibələr zamanı çoxlu sayda aparıcı KİV-in maraq dairəsinə düşməyib.*

SƏS
№ 136 (6819)
3 avqust 2023-cü il.
Qiymәti 60 qәpik

# "Qisas" əməliyyatı: terror və təxribatlara layiqli cavab

8



*Tarix boyu Azərbaycana qarşı işğalçılıq siyasətini yeridərək torpaq iddiası ilə ölkəmizə əl uzadan ermənilərə Azərbaycan 44 günlük Vətən müharibəsində elə bir dərs verdi ki, bu tarix heç zaman unudulmayacaq.*

## Tofiq Yaqublu Xaçaturyanın vəkili rolunda...



13

## Yerli turizm: pis xidmət və astronomik qiymət?



7

## Meşəli cəlladlarının məhşər günü



9

## Uşaqların təməl qidası kimi, niyə narahat edir?



15

## USAİD rəhbərinin təxribat xarakterli bəyanatında SÜRREALLIQ

USAID



12

# İLHAM ƏLİYEV: “Müharibədə qalib gəlmək mənim həyatımın, siyasi həyatımın missiyası idi”



***Tarixin bütün dönəmlərində "güclü ölkənin güclü, qətiyyətli lideri də güclü olur" fikri öz təsdiqin tapmışdır. Belə ki, bəşər tarixinin son onillikləri müharibələrlə dolu olduğu bir zamanda hələ heç bir dövlət başçısı bu müharibələr zamanı çoxlu sayda aparıcı KİV-in maraq dairəsinə düşməyib. Ancaq bir faktı da vurğulamaq lazımdır ki, qətiyyətli, nüfuzlu siyasi rəhbərə, dövlət başçısına beynəlxlaq marağın yüksək olması və bu marağın müharibə zamanı xüsusilə yüksək olması tam məntiqlidir.***

Bu baxımdan, Azərbaycan Prezidenti İlham Əliyevə müsahibə üçün dünyanın bir çox tanınmış media qurumlarının müraciət etməsi, ilk növbədə, Azərbaycan Prezidentinin nüfuzlu lider olmasından irəli gəlir. Çünki bu gün Prezident İlham Əliyev müzəffər Ali Baş Komandan kimi həm hərb meydanında öz sözünü deyir, həm də siyasi lider kimi informasiya meydanında ölkəmizin mövqeyini ustalıqla izah və müdafiə edir, haqq səsimizi bütün dünyaya çatdırır. Dövlət başçımız dünyanın aparıcı kütləvi informasiya vasitələrinə çoxsaylı müsahibələrində Azərbaycanın mövqeyini, atılan addımların məntiqini tam aydın şəkildə, səlis izah edir, düşmənin iddialarını əks-arqumentlərlə yerindəcə ifşa edir.

Elə bu günlərdə dövlət başçısı İlham Əliyevin iyulun 21-də “4-cü Sənaye İnqilabı dövründə Yeni Media” mövzusunda Şuşa Qlobal Media Forumunda çıxışı və iştirakçıların suallarına cavabı Azərbaycan həqiqətlərinin, postmünaqişə dövrünün reallıqlarının dünya ictimaiyyətinə çatdırılması üçün zəngin mənbədir. Forum çərçivəsində media və informasiya-kommunikasiya sahəsində qlobal səviyyədə mühüm aktuallıq kəsb edən məsələlər müzakirə olundu. Bu günədək çoxsaylı beynəlxalq tədbirlərin keçirildiyi Şuşa şəhəri müstəqil Azərbaycanın tarixində ilk dəfə olaraq dünyanın aparıcı media, jurnalist təşkilatları rəhbərlərini, media, informasiya-kommunikasiya sahəsində nüfuzlu ekspertləri, tanınmış jurnalistləri bir araya gətirdi. Cənab İlham Əliyev bu mühüm addımı belə əsaslandırdı ki, ötən il burada, Şuşada Azərbaycanın media nümayəndələrinin birinci Forumu keçiriləndə bu tədbirdə iştirak etmədim. Prezident Administrasiyasına göstəriş verdim ki, gələn dəfə bu tədbiri beynəlxalq Forum səviyyəsində təşkil etmək lazımdır: “Bu, artıq baş verir və mən qərara aldım ki, gəlim burada iştirak edim. Mən bu tədbirdə çıxışçı kimi təqdim edilmişdim. Ancaq mən hesab etdim ki, burada uzun-uzadı çıxış etməyə ehtiyac yoxdur. Hesab etdim ki, bu sorğu-sual daha maraqlı olar.”

Ölkə Prezidenti İlham Əliyev Forumda bir daha Azərbaycanın beynəlxalq aləmdə qazandığı sabitlik məkanı, birləşdirici aktor kimi nüfuzuna diqqət yönəltdi. “Azərbaycan rəqabət məkanı deyil, əməkdaşlıq məkanıdır” söyləyən dövlət başçısı bildirdi ki, Rusiya və ABŞ silahlı qüvvələrinin yüksək nümayəndələri, ordu qərargahlarının komandanları, NATO komandanları görüşlər üçün hər zaman Bakını seçiblər. Bunun ölkəmizə etimadın, etibarın göstəricisi olduğunu vurğulayan cənab İlham Əliyev onu da qeyd etdi ki, belə görüşlər dörd və ya beş dəfə keçirilib. Bu da onu göstərir ki, Azərbaycan maraqları birləşdirən ölkədir.

## *“Qarabağ erməniləri başa düşməlidirlər ki, Azərbaycan cəmiyyətinin bir hissəsi olaraq normal həyat yaşayacaqlar”*

Hətta elə ölkələr arasında ki, onlar hər zaman rəqabətdədir: “Yəni, bu, o vaxt idi ki, rəqabət dinc aparılırdı. İndiki şəraitdə isə Azərbaycanda belə təmaslar potensial olaraq yenə də bərpa edilə bilər”.

Elə bu günlərdə - avqustun 1-də Prezident İlham Əliyev “Euronews” telekanalına müsahibəsində əvvəlki müsahibələrində olduğu kimi yenə də yüksək intellekt, məlumatlılıq, natiqlik bacarığı, diplomatik məharət nümayiş etdirmişdir.

### ”MÜHARİBƏDƏ QALİB GƏLMƏK MƏNİM HƏYATIMIN, SİYASİ HƏYATIMIN MİSSİYASI İDİ VƏ O UĞURLA BAŞA ÇATDI. BİZ MÜHARİBƏDƏ QALİB GƏLDİK”

Bu müsahibəsində də ən həssas məsələlərə toxunaraq xalqımızı ən ağrılı problem kimi narahat edən düyünə düşmüş Qarabağ münaqişəsinin həllində düşmən ulu öndərin böyük məharətlə qurduğu və Prezident İlham Əliyevin Qafqazın ən güclü hərbi qüvvəsi sayılan, müdrik və qətiyyətli Ali Baş Komandanı olan, qeyrəti və döyüşmənliyi ilə dünyanı heyrətə gətirən mobil bir ordu gördü. 44 günlük şərəf müharibəsində düşmən Müzəffər Ali Baş Komandan İlham Əliyevin Sərkərdəlik məharəti qarşısında sarsıldı və sözün həqiqi mənasında, diz çökdü, düşmən ordusu pərən-pərən oldu. Prezident İlham Əliyevin ”Dəmir Yumruq” siyasəti ilə güclü ordumuzun rəşadətli əsgər və zabitlərin qəhrəmanlığı ilə xalqımızın 30 illik həsrəti bitdi, Qarabağın azad edilməsi ilə Vətən yenidən bütövləşdi. Müzəffər Ali Baş Komandan ikili standartlara pərəstiş edən dünya imperializmi ilə savaşaraq bəşəri ədalətin qələbəsini təmin etdi.

Azərbaycan Prezidenti İlham Əliyev “Euronews” telekanalına müsahibəsində bir daha bildirdi ki, biz ədaləti və ərazi bütövlüyümüzü bərpa etdik: «Ermənistan sülh istəyərsə, biz ona nail olacağıq. Çünki bizim Ermənistana qarşı hər hansı bir ərazi iddialarımız yoxdur»,-deyən dövlətimizin başçısı onu da bildirib ki, biz onların da Azərbaycana qarşı ərazi iddialarının olmamasını istəyirik: ”Qarabağda, hazırda müvəqqəti olaraq rusiyalı sülhməramlıların nəzarəti altında olan ərazidə yaşayan insanlar Azərbaycanda yaşayırlar. Onlar ölkəmizdəki digər çoxsaylı milli azlıqlar kimi Azərbaycan vətəndaşları olaraq yaşayacaqlarına, yoxsa Azərbaycanı tərk edəcəklərinə dair seçim etməlidirlər”.

Bu yerdə rusiyalı hərbi ekspert, ”Milli müdafiə” jurnalının baş redaktoru İqor Korotçenkonun Azərbaycan Prezidenti İlham Əliyevin dünya miqyasında siyasət adamı olduğunu vurğulayıb və bildirib ki, rusiyalı izləyicilər, siyasi ekspertlər İlham Əliyevin çıxışların erməni rəqibi Nikol Paşinyanla müqayisə edərkən gördülər ki, Azərbaycan Prezidenti erməni həmkarından bir baş yox, deyərdim iki baş yuxarıda idi: ”Bu rəy İlham Əliyevin dünya miqyasında siyasətçi olmasından ibarətdir. Bunu qəbul etmək lazımdır. Dünən milyonlarla rusiyalı İlham Əliyevin çıxışını izlədi və ona qarşı bir daha simpatiya oyandı. Xüsusi ilə də onun çıxışındakı yüksək dəqiqlikli arqumentlər, tezislərin ardıcıllığı, münaqişənin yenidən alovlanmasının əsas səbəblərinin ifadə olunması rusiyalı izləyici üçün hərbi əməliyyatlar və ümumilikdə münaqişə haqqında ətraflı məlumat oldu.

Bu xüsusilə də Ermənistanın baş naziri Nikol Paşinyanın əmin olmayan çıxışı fonunda daha çox hiss olunurdu. İlham Əliyev Dağlıq Qarabağ regionunda hərbi əməliyyatların bərpa olunmasına gətirib çıxaran əsas səbəbləri ardıcıl olaraq dilə gətirdi. Bu çox mühüm məsələ idi. İrəvanın qeyri-konstruktiv mövqeyi, danışıqlar prosesini uzatmaq arzusu və uzun müddətdir ki, Paşinyanın törətdiyi təxribatlar nəhayət geniş miqyaslı müharibəyə gətirib çıxarıb”.

### PREZİDENT İLHAM ƏLİYEVDƏN ERMƏNİSTANDAKI ERMƏNİLƏRƏ MESAJ: ”BİLİRLƏR Kİ, MƏN ÖZ SÖZÜMƏ ƏMƏL EDİRƏM”

Azərbaycan Prezidenti İlham Əliyev “Euronews” telekanalına müsahibəsində Ermənistandakı ermənilərə mesaj haqda sualı cavablandırarkən deyib: ”Mən heç zaman bu barədə düşünməmişəm, çünki həyatımda ilk dəfədir ki, mənə belə sual verilir. Mənim Ermənistandakı ermənilərə mesajım belədir ki, biz onların dövləti ilə sülh istəyirik»,-deyən Azərbaycan Prezidenti İlham Əliyev onu da bildirib ki, onlara digər mesajım ondan ibarətdir ki, hazırkı geosiyasi vəziyyəti və qüvvələr balansını aydın dərk etmək lazımdır: «Uzun illər ərzində Ermənistan liderləri öz xalqını inandırırdılar ki, onlar dünyanın ən güclü ordusuna sahibdirlər, əgər müharibə başlasa, onlar Bakıya çatacaqlar. Müharibə bu hekayələri məhv etdi. Biz nə bu gün, nə də gələcəkdə daha bir müharibə istəmirik”.

Prezident İlham Əliyev “Euronews” kanalına müsahibəsində müsahibəsində onu da bildirib ki, Qarabağdakı ermənilər qondarma liderlərinin arxasınca getməməlidirlər.

Ardı Səh. 3

# İLHAM ƏLİYEV: “Müharibədə qalib gəlmək mənim həyatımın, siyasi həyatımın missiyası idi”



## Prezidentdən Ermənistan hökumətinə mesaj: “Onlar üçün seçim ən yaxşı və qat-qat yaxşı arasında deyil...”

Əvvəli-Səh-2

Bu liderlər onlara daim yalan danışıblar: ”Qarabağ erməniləri başa düşməlidirlər ki, təhlükəsizlik təminatları, hüquqlarının, o cümlədən təhsil, mədəniyyət, dini, bələdiyyə hüquqlarının təmin edilməsi ilə Azərbaycan cəmiyyətinin bir hissəsi olaraq onlar normal həyat yaşayacaqlar. Onlar daha manipulyasiyanın girovu olmayacaqlar. Düşünürəm ki, onlar dinləsələr, məni anlayacaqlar. Onlar bilirlər ki, mən öz sözümə əməl edirəm”.

### “ERMƏNİSTAN SÜLH İSTƏYƏRSƏ, BİZ ONA NAİL OLACAĞIQ”

Prezident İlham Əliyev “Euronews” kanalına müsahibəsində “İlham Əliyevin missiyası nədədir – müharibədə qalib gəlməkdə, yoxsa Ermənistanla sülhün yaradılmasında?” sualına cavabında bildirib ki, biz müharibədə qalib gəldik, biz ədaləti və ərazi bütövlüyümüzü bərpa etdik: ”Ermənistan sülh istəyərsə, biz ona nail olacağıq. Çünki bizim Ermənistana qarşı hər hansı bir ərazi iddialarımız yoxdur. Biz onların da Azərbaycana qarşı ərazi iddialarının olmamasını istəyirik”.

Prezident İlham Əliyev qeyd edib ki, Qarabağda, hazırda müvəqqəti olaraq rusiyalı sülhməramlıların nəzarəti altında olan ərazidə yaşayan insanlar Azərbaycanda yaşayırlar: ”Onlar ölkəmizdəki digər çoxsaylı milli azlıqlar kimi Azərbaycan vətəndaşları olaraq yaşayacaqlarına, yoxsa Azərbaycanı tərk edəcəklərinə dair seçim etməlidirlər”.

Prezidenti İlham Əliyev Ermənistanın baş naziri Nikol Paşinyanla danışıqlara dair suala cavabında bildirib ki, sülh sazişinin əsas bəndləri nazirlər tərəfindən tərtib edilir: ”Bizim görüş isə hesab edirəm ki, yaxşı mühit yaradır. Lakin əgər biz Ermənistan tərəfindən konstruktiv yanaşma görsək, ən vacibi isə əgər onlar ərazi bütövlüyümüzü mübahisələndirən bütün iddialarını kənara qoysalar, onda biz tezliklə, bəlkə də, ilin sonunadək sülh variantını tapa bilərik”.

Dövlət başçısı qeyd edib ki, bu görüşlər çox həssas məsələlərə toxunmaq imkanını verir: ”Məsələn, sərhədlərin gələcək parametrləri - Ermənistanla Azərbaycan arasında sərhəd müəyyən olunmayıb. Çünki Sovet İttifaqı süquta uğradıqdan dərhal sonra biz həmin təcavüzlə üzləşdik. İndi sərhəd necə olacaq? Yerlərdə real vəziyyət necə olacaq? Kommunikasiyalarla bağlı vəziyyət necə olacaq? Axı İkinci Qarabağ müharibəsi nəticəsində Ermənistanın imzaladığı sənəddə onun öhdəliyi var ki, bizim Naxçıvan kimi eksklavımıza çıxışımız olsun. Lakin bu, hələ də baş vermir”.

### “LAÇIN YOLUNDA HƏRƏKƏT AZADLIĞI BLOKLANMAYIB”

Bunu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev “Euronews” kanalına müsahibəsində Laçın yolu ilə bağlı sualı cavablandırarkən bildirib. Dövlət başçısı qeyd edib ki, aprelin 23-dən - sərhəd keçid məntəqəsi qurulan vaxtdan etibarən Qarabağın 2 mindən artıq sakini Ermənistana asan şəkildə gedib gəlib.

## Azərbaycan Prezidenti: “Qırmızı Xaç Komitəsinin Qarabağdakı ofisinin Bakı ofisinə yox, İrəvandakı ofisə tabe olması yolverilməzdir”

Azərbaycan Prezidenti əlavə edib ki, Qırmızı Xaç Komitəsi dava-dərmanın nəqlini və Ermənistanda müalicəyə ehtiyacı olan xəstələrin təxliyesini bərpa edib. Lakin əfsuslar olsun ki, Qırmızı Xaç Komitəsinin yük maşınlarının yoxlanılması zamanı siqaret, iPhone-lar və benzin kimi məhsulların qaçaqmalçılıqla keçirilməsi aşkar olundu.

### “ATƏŞKƏS SAZİŞİNİN VASİTƏÇİSİ RUSİYA OLUB”

Prezident İlham Əliyev “Euronews” kanalına müsahibəsində Rusiyanın və Qərbin vasitçiliyinə dair suala cavabında deyib ki, əslində atəşkəs sazişinin, yeni 2020-ci il 10 noyabr tarixli Bəyannamənin vasitəçisi nə Birləşmiş Ştatlar, nə də Avropa İttifaqı deyil. Rusiya olub.

Dövlət başçısı bildirib ki, Ermənistanın baş naziri ilə ilk görüşlərim Rusiya tərəfindən Rusiyada təşkil olunmuşdu: ”Rusiya – Ukrayna müharibəsindən sonra vəziyyət dəyişdi və biz gördük ki, Birləşmiş Ştatlar və Avropa daha fəal oldular. Əslində, prosesin kimin tərəfdən aparılacağı və ya prosesi kimin müəyyən dərəcədə inhisara götürəcəyi bizim üçün böyük fərq etmir. Vacib olanı nəticəyə gəlməkdir”.

Prezident İlham Əliyev “Euronews” kanalına müsahibəsində Ukraynada münaqişənin başlamasından sonra Cənubi Qafqaz ölkələrinin Rusiya ilə münasibətlərinə dair suala cavabında deyib ki, Rusiya ilə münasibətlərimiz artıq tarazlaşdırılıb. Dövlət başçısı bildirib ki, ümumilikdə region haqqında demək çətindir, çünki Cənubi Qafqaz bölgəsi üç ölkədən ibarətdir: ”Biz Rusiyanın Cənubi Qafqazdakı qonşularımızla qarşılıqlı əlaqələrini sadəcə müşahidə edə bilərik. Azərbaycana gəldikdə isə, elə də ciddi dəyişiklik yoxdur. Çünki bizim Rusiya ilə münasibətlərimiz artıq tarazlaşdırılıb. Onlar bir-birimizin milli maraqlarının və əlbəttə ki, ərazi bütövlüyünün və suverenliyin tanınmasına əsaslanır”.

### PREZİDENT İLHAM ƏLİYEV ŞARL MİŞELİN İŞTİRAKI İLƏ ERMƏNİSTANLA DANIŞIQLARA DAİR: ”AVROPA İTTİFAQININ FƏAL OLMASI TƏBİİDİR”

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ”Euronews” telekanalına müsahibəsində Şarl Mişelin iştirakı ilə Ermənistanla danışıqlara dair suala cavabında deyib: ”Bu, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin təşəbbüsü idi. O, bizi dəvət etdi və biz dəvəti qəbul etdik. Çünki Azərbaycan ilə Avropa İttifaqının, eləcə də onunla Ermənistanın əməkdaşlıq səviyyəsini nəzərə alsaq, Avropa İttifaqının fəal olması təbiidir”.

Dövlətimizin başçısı onu da bildirib ki, Avropa İttifaqı ən yaxşı vasitəçi ola bilər, çünki bizim onunla münasibətlərimiz qarşılıqlı hörmətə, etimada və maraqlara söykənir: ”Bir sözlə, həmin təşəbbüs hazırda çox fəal dialoq formatına çevrilir, çünki biz təkcə Brüsseldə deyil, həmçinin Avropa Sülh Təşəbbüsü çərçivəsində də görüşürük. Sonuncu dəfə bu görüş Kişineuda baş tutdu. Bunu vacib hesab edirəm, çünki vəziyyətin durğun olmasına imkan vermirik, çünki durğunluq yaranarsa, onda biz hər hansı təhlükəli ssenaridən sığortalana bilmərik”.

Bir sözlə, son 20 illik fəaliyyəti dövründə Qüdrətli Prezident, Güclü Lider, Müzəffər Komandan İlham Əliyev cənablarının həm müharibəni gedişində, həm də sonra beynəlxalq ictimai rəyi Azərbaycanın xeyrinə dəyişməyi necə bacardığının hər kəs şahididir.

Bax, budur, həqiqət! Çünki bu gün qalib lider Prezident İlham Əliyev irəli sürdüyü şərtlər qəbul edilir və Paşinyan və Ermənistan yeni reallıqları qəbul etməli, həmin reallıqlarla barışmalıdır. Çünki Azərbaycan qalib ölkədir və bundan sonra diktə edən tərəf də hər zaman Azərbaycan olacaq! Hər kəs həqiqəti bilməli və görməlidir. Çünki bu xalq öz qalib lideri İlham Əliyevlə yenilməzdir. Müzəffər rəhbər İlham Əliyev də onun ətrafında sıx birləşmiş xalqı ilə güclüdür.

**RƏFİQƏ KAMALQIZI**

# "Qərbi Azərbaycan icmasının öz vətəninə qayıtmaq hüququ var"

## *Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev Səudiyyə Ərəbistanının "Əş-Şarg əl-Avsat" qəzetinə müsahibə verib*

***"Səudiyyə Ərəbistanı ilə Azərbaycan arasında ənənəvi dostluq və tarixi əlaqələr mövcuddur. Ölkələrimiz arasında uzunmüddətli tərəfdaşlıq əlaqələrinin əsası Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 1994-cü ildə Səudiyyə Ərəbistanına səfəri və İki Müqəddəs Ocağın Xadimi mərhum Kral Fəhd bin Əbdüləziz ilə görüşü zamanı qoyulub. 2015-ci ildə Prezident İlham Əliyevin Səudiyyə Ərəbistanına rəsmi səfəri, eləcə də 2017-ci ildə Ərəb-İslam-Amerika Sammitində iştirak etmək üçün Ər-Riyada işçi səfəri bu əlaqələrin möhkəmlənməsinə gətirib çıxarıb. Hazırda iki ölkə arasında əlaqələr dostluq, qardaşlıq və tərəfdaşlıq münasibətləri olaraq qeyd edilə bilər."***



AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Səudiyyə Ərəbistanının "Əş-Şarg əl-Avsat" qəzetinə müsahibəsində bildirib.

Prezidentin köməkçisi Azərbaycan xalqının Səudiyyə Ərəbistanı Krallığının Ermənistanın ölkəmizə hərbi təcavüzünü pisləməsini və işğalçı dövlətlə diplomatik əlaqələr qurmamasını heç vaxt unutmadığını və bunu yüksək qiymətləndirdiyini vurğulayıb. Diqqətə çatdırıb ki, Səudiyyə Ərəbistanının ədalətə söykənən, Təhlükəsizlik Şurasının dörd məlum qətnaməsinə, beynəlxalq hüququn norma və prinsiplərinə, İslam həmrəyliyinə əsaslanan mövqeyi bütün dünyaya nümunədir. 1990-cı illərdə Ermənistanın torpaqlarımızı işğal etməsi, azərbaycanlılara qarşı soyqırımı törətməsi nəticəsində bir milyondan çox azərbaycanlı doğma yurdundan didərgin salınaraq məcburi köçkünə çevrilib. Məhz həmin dövrdə qardaş Səudiyyə Ərəbistanının Azərbaycana dəstəyi heç vaxt unudulmur.

Bu gün əlaqələrimizin uğurla inkişaf etdiyini, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində sıx əməkdaşlıq həyata keçirdiyini və bir-birini fəal dəstəklədiyini diqqətə çatdıran Prezidentin köməkçisi bildirib: "Azərbaycanla Körfəz Əməkdaşlıq Şurası dövlətləri və Ərəb Dövlətləri Liqası arasında əlaqələrin inkişafında Səudiyyə Ərəbistanının rolunu yüksək qiymətləndiririk. Eyni zamanda, biz Səudiyyə Ərəbistanının "Ekspo-2030" sərgisinə ev sahibliyi etməsini dəstəkləyir və Krallığa bu mötəbər tədbiri uğurla təşkil etməsini arzulayırıq. Səudiyyə Ərəbistanının regionda və dünyada sülhün və təhlükəsizliyin qorunmasında göstərdiyi cəhdləri yüksək qiymətləndiririk. Azərbaycan Səudiyyə Ərəbistanına qarşı PUA-larla və ballistik raketlərlə edilən hücumları pisləyib və bunu qəbuledilməz hesab edir".

İkitərəfli əlaqələrimizdə turizmin vacib yer tutduğunu vurğulayan H.Hacıyev birbaşa aviareyslərin sayının artırıldığını, ötən il 100 minə yaxın Səudiyyə Ərəbistanı vətəndaşının Azərbaycana səfər etdiyini, bu dinamikanın bu il artdığını qeyd edib. Azərbaycanın Səudiyyə Ərəbistanı ilə iqtisadi-ticari əlaqələrin inkişaf etdirilməsində, kənd təsərrüfatı və ərzaq təhlükəsizliyi sahəsində investisiyaların artırılmasında maraqlı olduğu, bu ölkənin şirkətlərinin işğaldan azad edilmiş ərazilərimizin bərpası prosesində fəal iştirakını gözlədiyi bildirilib.

Müsahibədə Körfəz ölkələri ilə Azərbaycan arasında institusional əməkdaşlığın qurulmasının önəmi, eləcə də qlobal və regional təhlükəsizlik məsələlərinin müzakirəsi üçün təhlükəsizlik dialoqunun aparılmasının mümkünlüyü vurğulanıb. Həmçinin iqtisadi-ticari və humanitar sahələrdə əməkdaşlığın genişləndirilməsinin vacibliyi qeyd olunub, Azərbaycanın Körfəz ölkələrindən turistlərin cəlb edilməsində maraqlı olduğu bildirilib. Qeyd edilib ki, viza prosedurunun sadələşdirilməsi Körfəz ölkələrindən gələn turistlərin sayının artmasına gətirib çıxarıb. Bununla yanaşı, ticarət dövriyyəsinin həcminin artırılması baxımından investisiya və biznes sektorunda əlaqələrin gücləndirilməsinin, Körfəz sərmayəsinin Azərbaycana, xüsusən də azad edilmiş əraziləri yenidən qurulması prosesinə cəlb olunmasının önəmi vurğulanıb.

Prezidentin köməkçisi Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması, sülh danışıqları barədə də sualları cavablandırıb. Vətən müharibəsində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Zəfər qazanan Azərbaycanın otuz illik işğala son qoyaraq, BMT Təhlükəsizlik Şurasının qətnamələrini təkbaşına yerinə yetirdiyi bildirilib. Qeyd olunub ki, müharibədən qısa müddət sonra Azərbaycan Ermənistanla bir-birinin suverenliyinin və ərazi bütövlüyünün qarşılıqlı tanınması əsasında sülh sazişi imzalamaq üçün beş əsas prinsipi təqdim edib. Lakin Ermənistan öz öhdəliklərinə zidd olaraq, silahlı qüvvələrinin qalıqlarını torpaqlarımızdan hələ də tam çıxarmayıb, əksinə, Laçın yolundan hərbi məqsədlər üçün istifadə edib. Bundan başqa, Azərbaycanın 8 kəndi hələ də Ermənistanın işğalı altındadır. Ermənistan ölkəmizə qarşı ərazi iddialarını başqa ad altında davam etdirir. Yerevan absurd iddialar irəli sürməklə sülh müqaviləsi üzrə danışıqlara əngəllər yaradır.

Bildirilib ki, Azərbaycan öz sərhədlərinə nəzarət etmək və Ermənistanın qanunsuz fəaliyyətinin qarşısını almaq üçün suveren ərazisində "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsi yaradıb. Ermənistanın regionda humanitar vəziyyətin guya gərgin olması ilə bağlı əsassız iddialar yaymasının məqsədi bölgəyə üçüncü tərəfləri cəlb etmək, gərginliyin coğrafiyasını genişləndirmək və sülh prosesini pozmaqdır.

H.Hacıyev qeyd edib ki, Azərbaycanın Qarabağ bölgəsində heç bir humanitar böhran yaşanmır. Ermənistanın Azərbaycanın bir sıra təkliflərinə, o cümlədən erməni əhalinin ehtiyaclarını ödəmək üçün Ağdam-Xankəndi yolundan və digər alternativ yollardan istifadə təklifinə qarşı çıxması bir daha göstərir ki, humanitar vəziyyətlə bağlı Yerevanın iddiaları siyasi şantaj və manipulyasiya məqsədi daşıyır. Ermənistanın qondarma "humanitar yüklərlə" bağlı son hərəkətləri siyasi şoudan başqa bir şey deyil.

Həmçinin 1990-cı illərin əvvəllərində bir çox azərbaycanlının vəhşicəsinə qətlə yetirilməsinə görə məsuliyyət daşıyan hərbi cinayətkar Vaqif Xaçaturyanın Qarabağdan qaçmaq istəyərkən "Laçın" sərhəd-keçid məntəqəsində saxlanıldığı qeyd edilib, erməni tərəfinin onunla bağlı iddialarının əsassız olduğu vurğulanıb. Bildirilib ki, son günlər baş vermiş bütün təxribatlara görə məsuliyyət Azərbaycanda qeyri-qanuni hərbi mövcudluğunu davam etdirən, separatizmi təşviq edən və reinteqrasiya səylərinə mane olan Ermənistan və onun rəhbərliyinin üzərinə düşür. Bütün anti-Azərbaycan bəyanatlar Azərbaycan rəhbərliyinin iradəsinə qətiyyən təsir göstərməyəcək. Qarabağ bölgəsində yaşayan erməni əhalinin hüquqlarına ölkə konstitusiyası əsasında təminat verən Azərbaycan suverenliyinə və ərazi bütövlüyünə qarşı hər hansı addımın qarşısını qətiyyətlə alacaq.

Prezidentin köməkçisi müsahibədə Qərbi Azərbaycan icmasının hüquqlarının bərpası məsələsinə də toxunub. Bildirib ki, Qərbi Azərbaycan icmasının Ermənistanda öz yurdlarına qayıtmaq hüququ var, çünki bu icma 1980-ci illərin sonlarında Ermənistandan qovulub. Ermənistanın ozamankı demoqrafik vəziyyətinə baxdıqda, müsəlmanların, xüsusilə də azərbaycanlıların geniş coğrafi regionda məskunlaşdıqlarını və oranın yerli icması olduğunu görmək olar. Lakin bugünkü Ermənistan monoetnik cəmiyyətdir. Buna görə də Qərbi Azərbaycan İcmasının öz vətəninə qayıtmaq hüququ var. Təəssüf ki, Ermənistan bu icmanın hüquqlarını tam şəkildə pozur.

Müsahibədə Azərbaycan-İran münasibətlərindən də söz açan H.Hacıyev ölkəmizin qonşuları ilə münasibətlərini ərazi bütövlüyü və suverenliyə qarşılıqlı hörmət, daxili işlərə qarışmamaq prinsipləri əsasında qurduğunu xatırladıb. Bildirib ki, Azərbaycan ilə İran arasında tarixi qonşuluq əlaqələri var. Lakin Azərbaycanın İrandakı səfirliyinə edilmiş son hücum və nəticədə səfirliyin əməkdaşının qətlə yetirilməsi ikitərəfli əlaqələrdə gərginlik və anlaşılmazlıq yaradıb. Hazırda diplomatik kanallar vasitəsilə əlaqələr var, İranın rəsmi şəxslərinin Azərbaycana müvafiq səfərləri həyata keçirilir. Bu gərginlik və anlaşılmazlıqların aradan qaldırılması üçün xarici işlər nazirləri səviyyəsində dialoq davam edir. Azərbaycan İrandakı səfirliyimizə hücum edən terrorçunun və onun arxasında duran qüvvələrin İran qanunlarına uyğun olaraq cəzalandırılacağını gözləyir. Azərbaycan hər zaman dialoq və diplomatiyanı dəstəkləyir.

H.Hacıyev daha sonra qeyd edib ki, Qərbi Azərbaycan icmasının Ermənistanda öz yurdlarına qayıtmaq hüququ var, çünki bu icma 1980-ci illərin sonlarında Ermənistandan qovulub.

Prezidentin köməkçisi qeyd edib ki, Ermənistanın o zamankı demoqrafik vəziyyətinə baxdıqda, müsəlmanların, xüsusilə də azərbaycanlıların geniş coğrafi regionda məskunlaşdıqlarını və oranın yerli icması olduğunu görmək olar. Lakin bugünkü Ermənistan monoetnik cəmiyyətdir. Buna görə də Qərbi Azərbaycan icmasının öz vətəninə qayıtmaq hüququ var. Təəssüf ki, Ermənistan bu icmanın hüquqlarını tam şəkildə pozur.

# "İsrail təkcə sözdə dost deyil, həm də əməldə öz dostluğunu sübut edir"




***"Bakı və Qüds arasında strateji tərəfdaşlıq qurulub. Hər iki xalq arasında münasibətlər tarixində ən yüksək səviyyəyə çatıb və daha da inkişaf edəcəyi gözlənilir."***

Bu fikirlər Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə xüsusi nümayəndəsi Elçin Əmirbəyovun ABŞ-ın geniş oxucu kütləsinə malik "Jewish News Syndicate" nəşrinə açıqlamasında yer alıb. Azərbaycan rəsmisi açıqlamasında iki ölkə arasında münasibətlərin çoxşaxəli və dinamik olduğunu, mütəmadi şəkildə inkişaf etdiyini vurğulayıb: "Bu gün biz qarşılıqlı münasibətlərimizin zirvə nöqtəsindəyik və bu dostluğu, əməkdaşlığı dərinləşdirməkdə, inkişaf etdirməkdə qətiyyətliyik".

Məqalə müəllifi qeyd edib ki, bu açıqlamalar Azərbaycanın dünyada şiə çoxluğun yaşadığı ilk dövlət kimi İsraildə öz səfirliyini açmasından cəmi dörd ay sonraya təsadüf edir. Diplomatik missiyanın açılması iki ölkə arasında otuz ildən bəri mövcud münasibətlərin və iki xalq arasında yüzilliklərə söykənən tarixi əlaqələrin, eləcə də təhlükəsizlik və enerji sahəsində tərəfdaşlığın nəticəsidir. Diqqətə çatdırılır ki, iki xalq arasında münasibətlər dinlərarası əlaqələr üçün nümunəvi sayıla bilər və İsrail 1991-ci ildə dövlət müstəqilliyini elan etmiş Azərbaycanı tanıyan ilk ölkələrdən biri olmuş, 1993-cü ildən Bakıda öz səfirliyini açmışdır. İsrailin neft tələbatının təxminən 30 faizini Azərbaycan təmin edir, Azərbaycan isə İsrailin hərbi məhsullarının əsas alıcılarından hesab olunur və 2020-ci ildə Ermənistanla müharibədə həmin silahlar Azərbaycanın Qələbəsinə töhfə verib.

Elçin Əmirbəyov qeyd edib ki, Azərbaycandakı yəhudi icması ölkə ictimaiyyətinə sıx inteqrasiya olmuş mühüm bir icmadır: "Yəhudi icması bizim ölkələri birləşdirən və münasibətləri möhkəmləndirən "canlı körpü" kimi çıxış edir".

Diqqətə çatdırılıb ki, hazırda Azərbaycanda yaşayan yəhudilərin sayı 25-30 min civarındadır və Azərbaycandan İsrailə miqrasiya etmiş yəhudilər öz tarixi vətənləri ilə sıx əlaqə saxlayırlar. Həmçinin 50-dək etnik qrupun dinc şəkildə birgə yaşadığı Azərbaycan bu ölkədə yaşayan yəhudi icması ilə yaxşı münasibətlərdən qürur duyur.

Məqalədə iki ölkə arasında əlaqələrin gələcəyinə də toxunulub və qeyd edilib ki, Ermənistanın işğalından azad olunmuş ərazilərin bərpası və yenidən qurulmasında İsrail şirkətləri də yaxından iştirak edə bilərlər. Eyni zamanda, bu il ərzində Bakıya yüksək səviyyəli səfərlərin baş tutması da əlaqələrin səviyyəsindən xəbər verir. Həmçinin qeyd edilib ki, Azərbaycan Türkiyə və İsrail arasında münasibətlərin inkişafına da öz töhfəsini verir.

E.Əmirbəyov məqalənin sonunda qeyd edib ki, İsrail təkcə sözdə dost deyil, eyni zamanda, əməldə öz dostluğunu sübut edir və bu, ölkənin milli təhlükəsizliyi üçün mühüm əhəmiyyət daşıyır. Yekunda vurğulanıb ki, Azərbaycan-İsrail münasibətləri həm Bakıda, həm də Qüdsdə hər iki tərəf üçün əhəmiyyətli hesab edilir.

# RF: “Laçın dəhlizi” mövcud deyil



*Prezident İlham Əliyevin hələ 2021-ci ildə səsləndirdiyi fikirləri bu gün Rusiya tərəfindən təsdiqlənir*

***Bir müddət əvvəl Rusiyanın TASS informasiya agentliyi ölkənin baş nazirinin müavini Arkadi Overçukun müsahibəsini dərc etmişdi. O, sözügedən müsahibəsində Bakı ilə İrəvan arasındakı münasibətlər barədə kifayət qədər müxtəlif fikirlər səsləndirmişdi. Əslində, burada heç bir qəribəlik də yoxdur. Çünki o, üçtərəfli komissiyanın Rusiya tərəfindən olan həmsədridir. Lakin bu müsahibədə nəzərəçarpan əsas və diqqətçəkən məsələ o oldu ki, Overçuk ”Laçın dəhlizinin” mövcud olmadığını, bundan sonra da olmayacağını rəsmən bəyan edib.***

### Overçuk: ”Nəqliyyat rabitələrinin blokadadan çıxarılması Yerasx (Arazdəyən) - Culfa-Mehri-Horadiz dəmir yolunun bərpası ilə başlayacaq”

Digər tərəfdən rusiyalı rəsmi kommunikasiyaların blokadadan çıxarılması, Zəngəzur dəhlizinin açılması ətrafında fikirlərini səsləndirib. Məsələn, o deyib: ”... Kompleks sənədlər formalaşdırılıb. Orada bəyan edilib ki, regionda nəqliyyat rabitələrinin blokadadan çıxarılması Yerasx (Arazdəyən) - Culfa-Mehri-Horadiz dəmir yolunun bərpası ilə başlayacaq və tərəflərin suverenliyinə hörmət ediləcək... Beləliklə, bu yol üzərində - Azərbaycanın ərazisində öz qanunları Ermənistanın ərazisində isə öz qanunları işləyəcək”.

İndi isə, gəlin, Azərbaycan Prezidenti İlham Əliyevin regionda kommunikasiyaların açılması ilə bağlı fikirlərini xatırlayaq...

### Azərbaycan Prezidentinin iki il əvvəl verdiyi bəyanatı bu gün öz məntiqi sübutunu tapır!

Misal üçün, ölkə rəhbərimiz NATO-nun baş katibi Yens Stoltenberqlə görüşü zamanı bəyan etmişdi: ”Üçtərəfli Bəyanatda açıq şəkildə bildirilir ki, Azərbaycan Laçın dəhlizini əlçatan etməklə yanaşı, həm də təhlükəsizliyini təmin edir. Ermənistan da bizim üçün Zəngəzur dəhlizində eyni vasitəni təqdim etməlidir. Hazırda (həmin vaxt) Laçın dəhlizində gömrük məntəqəsi yoxdur. Zəngəzur dəhlizində də eyni vasitə olmalıdır. Əgər Ermənistan Zəngəzur dəhlizində vətəndaşların və nəqliyyat vasitələrinin hərəkətinə gömrük məntəqələri tətbiq edəcəksə, onda biz də identik şəraitdə Laçın dəhlizində eyni vasitəni tətbiq edəcəyik. Bu, məntiqdir”.

Bəli, İlham Əliyev bu fikirlərini hələ 2021-ci ildə vurğulayıb! Bu gün isə - 2023-cü ildə Laçın yolunda Azərbaycanın sərhəd buraxılış məntəqəsi, həmçinin, gömrük məntəqəsi mövcuddur.

### Rusiyalı rəsminin fikirlərində “blokada” barədə heç deyilmir

Rusiyanın baş nazirinin müavini isə deyir ki, nə Bakı, nə də İrəvan Zəngəzur dəhlizinin üzərində suveren nəzarətə qarşı deyillər. Məgər bu faktın özü İlham Əliyevin iki il əvvəl dediyi fikirlərinin təsdiqi deyilmi?

Maraqlısı da budur ki, rusiyalı rəsmi bunu təsdiq edir. Eyni zamanda, onun fikirlərində Laçın yolunun ”blokadası” barədə heç nə deyilmir. O cümlədən, Azərbaycan sərhədçilərinin fəaliyyəti barədə də heç bir tənqidi, yaxud mənfi fikirlər yoxdur. Beləliklə isə fakt budur ki, bütün tərəflər rəsmi Bakının haqlı olduğunu qəbul edirlər.

Bu gün Ermənistan hakimiyyətinin Laçın yolu üzərində oynamağa çalışdığı tamaşası isə heç bir məntiqə sığmır. Əks halda, bu məntiqsizliyi də aradan qaldırmaq üçün Azərbaycan əlində olan bütün vasitələrdən istifadə etmək gücündə və iqtidarındadır.

***Afət Tahirqızı***

## “Ermənilərin qurduqları oyunlar özlərinə zərər vurur”

“Son vaxtlar ermənilərin, Ermənistan hakimiyyətinin və erməni icmalarının fəaliyyətləri birbaşa Azərbaycanın əlinə oynamağa hesablanıb. Bilərəkdən, ya bilməyərəkdən, ola bilsin ki, başlarını itirib nə etdiklərinin mahiyyətini gömədiklərindən, hər nədənsə, son olaylarda onların bütün addımları özlərinə zərər, bizə xeyir gətirməklə sonuclanır”. Bunu ”Azadlıq Hərəkatçılar Birliyi”nin sədri Təhmasib Novruzov ”Səs” qəzetinə açıqlamasında deyib.

Onun sözlərinə görə, Laçın postu qurularkən hay-küy qaldırdılar, dəstəkçiləri də onların banlamalarına banlamaqla cavab verdilər: “Sonda nə oldu? Beynəlxalq Məhkəmə bunu Azərbaycanın legitim hüququ kimi tanıdı. Başqa cür də ola bilməzdi. Kim suveren bir ölkəyə deyə bilər ki, sən sərhədində gəlib-gedənə nəzarət eləmə? Ardınca 400 tona yaxın ”humanitar yardım” şousunu başladılar. Yenə erməni sevgilisi olan Fransanın, İspaniyanın, Kanadanın bir-iki siyasiləri ermənilərin bu şousuna qoşulub oynadılar. Sonda nə məlum oldu? Bu ”humanitar” yüklərin Azərbaycan ərazisinə gətirilməsi üçün Azərbaycan hökumətinə heç bir müraciət olmayıb. Yenə dünya bizim haqlı olduğumuzu qəbul etmək məcburiyyətində qaldı. Axı hansı ölkə hakimiyyəti onun xəbəri olmadan ərazisinə 20 tır yükü buraxar? Nəhayət, Vaqif Xaçaturyan olayı. Ermənistan yetkililəri bu caninin həbsi ilə bağlı, ən azı səslərini çıxarmalı deyildilər. Onlar da yaxşı bilir, bizim əlimizdə də kifayət qədər sübutlar var ki, bu insanabənzər məxluq Qarabağda onlarla insan öldürüb, ən ağır cinayətlər törədib. Erməni hakimiyyəti belə bir məxluqu müdafiə etməklə, əslində, cinayəti, cinayətkarı müdafiə etmiş olur. Belədə bu dövlətin cinayətkar, terrorçu dövlət olması faktı təsdiqlənmiş olur. Biz on illərdi dünyaya car çəkib bunların terroru dəstəkləyən dövlət olduğunu dünyaya sübut eləməyə çalışırıq, Vaqif Xaçaturyana dəstək verməklə, özləri bunu dünyaya sübut elədilər. Düzdü, ikili standartlarla idarə olunan indiki dünyada belə iyrəncliklərə haqq qazandırmaq, Ermənistanı müdafiə etmək istəyən beş-üç dövlət yetkilisi də tapılır. Amma yeni düzənin astanasında olan dünyada beləlləri sonda fiaskoya məhkumdur. Necə ki, ermənilərin bütün qurduqları oyunlar sonda özlərinə zərər vurur!”

***GÜLYANƏ***




## “Qırmızı Xaç Komitəsi sərhədi “su yolu” kimi keçib gedə bilməz”




“Qırmızı Xaç Komitəsinin davranışları Azərbaycan tərəfindən xeyli suallar yaradır və cənab Prezidentin də dilə gətirdiyi məsələ bununla bağlıdır. Bütün dünya, ölkələr, o cümlədən Qırmızı Xaç Komitəsi Azərbaycanın ərazi bütövlüyünü tanıyıb. Azərbaycanın da ərazi bütövlüyünü tanıyıbsa demək ki, Qırmızı Xaç Komitəsi Azərbaycan-Ermənistan sərhədini “su yolu” kimi keçib gedə bilməz”.

Bu sözləri Milli Məclisin deputatı Razi Nurullayev SİA-ya açıqlamasında deyib.

“Azərbaycan onların İrəvan ofisini Bakıya köçürmələrini tələb edirsə bu, belə də olmalıdır. Çünki Azərbaycan sərhədini istənilən vaxt bağlaya da bilər və nəyə görə Qırmızı Xaç Komitəsi üçün açıq buraxılmalıdır? Azərbaycan insanları əlini qolunu sallayıb Ermənistan sərhədindən keçib gedə bilərmi? Buna görə də bu hərəkətlər hansı yanaşmaya, hansı qanuna sığır? Buna görə də əminəm ki, Azərbaycan Prezidentinin bu mesajı kanallarla onlara da çatdırılacaq, vaxt veriləcək ki, ofislərini Bakıya köçürsünlər. Düşünürəm ki, Azərbaycan artıq Laçın yolunu bağlamalıdır və bağlayıb, onu açmayacaq da. Ermənistan tərəfi Azərbaycana siyasi təzyiqlər göstərir, Azərbaycanın sərhədini “su yolu”na döndərmək istəyir. Lakin Azərbaycan öz suveren ərazisində öz ərazisi, sərhədi ilə bağlı istənilən qərarı verməyə səlahiyyətinə malikdir. Heç kim bizə deyə bilməz ki, sərhədini aç və kimsə oradan istədiyi formada gedib gəlsin. Bu, mümkün deyil və Azərbaycan da bununla bağlı fikirlərini Qırmızı Xaç Komitəsinə çatdırdı. Buna görə də fikrimcə, yaxın zamanlarda Qırmızı Xaç Komitəsinə artıq konkret şəkildə Laçın yolundan istifadə edə bilməyəcəyi çatdırılmalıdır, yalnız Azərbaycanın daxilində fəaliyyət göstərə bilər və orada yaşayan erməni sakinlər də Ağdam-Xankəndi yolundan istifadə edə bilər. Başqa yol olmamalıdır. Azərbaycan da yəqin ki, yaxın günlərdə bununla da bağlı qətiyyətli qərarını açıqlayacaq. Prezidentin bununla bağlı bu şəkildə danışması, bir neçə dəfə dilə gətirməsi ondan xəbər verir ki, hələ ki, ağıllarını başlarına yığmaq və doğru qərar vermək üçün bu barədə məsələlər onların diqqətinə çatdırılır. Etməyəcəklərsə də Azərbaycan Laçın yolunu onların üzünə bağlayacaq və Qırmızı Xaç Komitəsi ilə Azərbaycan arasındakı münasibətlər pisləşəcək. Azərbaycan hər zaman humanitar prinsip və qanunlara tabe olan, beynəlxalq konvensiyalara hörmət edə ölkə olub. Buna görə də gərək Qırmızı Xaç Komitəsi də fəaliyyət göstərdiyi ölkənin qanunlarına hörmətlə yanaşsın. Hörmətlə yanaşmayacaqsa, təbii ki, Azərbaycanın da deməyə sözü vardır”, - millət vəkili qeyd edib.

***Aysel Naibli***

# İqtisadi güc və siyasi iradənin qətiyyəti





## *Prezident İlham Əliyev "Böyük Qayıdış" üçün Qarabağ və Şərqi Zəngəzurda mükəmməl həyat şəraiti yaradır*

***Bəli, bir qərinəyə yaxın dövrdə düşmən tapdağı altında əsir həyatı yaşayan Qarabağ və Şərqi Zəngəzurun qaranlığa qərq edilmiş hər guşəsi indi nura boyanır.Yenidən qurulub abadlaşan, dünyanın ən ecazkar məkanlarından birinə çevrilən bu yurd yerlərimizdə reallaşan möhtəşəm layihələr düşmənin bağrını yarır və Şuşanın, Kəlbəcərin, Ağdamın, Xocavəndin, Füzulinin, Zəngilanın, Cəbrayılın, Qubadlının, Suqovuşanın timsalında zəfərimiz parlayır. Çünki bu gün Qarabağ və Şərqi Zəngəzur azaddır, Qarabağ dirçəlir, Zəngəzur dirçəlir, qürurla öz doğma torpaqlarımızı qururuq, yaradırıq.***

Prezident İlham Əliyev tarixi Zəfərimizin rəmzi olan Şuşadan xalqa müraciətində bildirmişdir ki, bütün bu işlərin təməlində Azərbaycan xalqının maraqları dayanır: "On günə yaxın Qarabağ və Şərqi Zəngəzurda olarkən bir daha əyani şəkildə görürəm ki, Qarabağ və Şərqi Zəngəzur dirçəlir, yollar, körpülər, tunellər, elektrik stansiyaları, su anbarları, məktəblər, xəstəxanalar, yaşayış binaları, məscidlər inşa edilir, yenidən qurulur və ya təmir olunur, elektrik xətləri çəkilir".

Bəli, Qalib, Qurucu liderimiz, Prezident İlham Əliyev cənablarının birbaşa rəhbərliyi altında Qarabağ və Şərqi Zəngəzurumuz başdan qurulur, gün keçdikcə tarixi diyarlarımız cənnətə çevrilir.

### BÜTÜN BU QURUCULUQ İŞLƏRİNİN TƏMƏLİNDƏ AZƏRBAYCAN XALQININ MARAQLARI DAYANIR

Prezident İlham Əliyev tarixi Zəfərimizin rəmzi olan Şuşadan xalqa müraciətində bildirmişdir ki, bütün bu quruculuq işlərinin təməlində Azərbaycan xalqının maraqları dayanır: "Ulu Öndərin Azərbaycan xalqı qarşısında xidmətləri misilsizdir və biz – onun davamçıları onun yolu ilə gedirik. 2003-cü ildə prezident seçkiləri ərəfəsində xalqa müraciət edərək demişdim ki, əgər mənə etimad göstərilərsə, mən Heydər Əliyev siyasətinə sadiq qalacağam. Azərbaycan xalqı mənə inandı və mən də sözümdə durmuşam və duracağam. 2003-cü ildən bu günə qədər 20 il keçib. Bu 20 il sürətli inkişaf və tərəqqi illəri olmuşdur. Uzun illər bundan sonra da Azərbaycan yalnız və yalnız inkişaf edəcək".

Bəli, bu gün Azərbaycan Prezidenti İlham Əliyev ulu öndər Heydər Əliyevin və bütün Azərbaycan xalqının inamını etibarını qazanaraq son 20 illik prezidentlik fəaliyyəti



müddətində xalqına verdiyi vədləri yerinə yetirmiş güclü siyasi lider olaraq hər bir Azərbaycan vətəndaşının Prezidenti olduğunu təsdiqləyir. Şəxsi keyfiyyətləri, siyasi uzaqgörənliyi və reallığa uyğun çevik qərarlar qəbuletmə bacarığı sayəsində cəmiyyətin bütün zümrələrini ətrafında birləşdirən İlham Əliyev 2003-cü il oktyabrın 15-də keçirilən prezident seçkilərində də xalqın böyük dəstəyini qazanmış və Azərbaycanın siyasi və beynəlxalq arenada mövqelərinin daha da möhkəmlənməsinə və bir sıra vacib sahələrdə mühüm uğurlara imza atmasına nail olmuşdur. Prezident İlham Əliyev həmişə çıxışlarında "mənim sözüm imzam qədər qüvvətlidir",-deyir. Və işğaldan azad olunmuş torpaqlara səfərləri və qısa bir zaman kəsiyində görülən uğurlu işlər və həyata keçirilən layihələr məhz Qalib Liderin sözünün və əməlinin vəhdətinin nümayişidir.

Hər bir vədin konkret əməli işi ilə təsdiqləyən Azərbaycan Prezidenti İlham Əliyevin Qələbəmizin Zəfərindən ötən iki il yarım ərzində işğaldan azad edilmiş ərazilərimizə səfərləri çərçivəsində təməlqoyma mərasimində iştirak etdiyi yeni sosial obyektlərin say tərkibinə, icrasına başlanan infrastruktur layihələrinə, imzalanan Fərman və sərəncamlara, təsdiqlənən Dövlət proqramlarına diqqət yetirmək kifayətdir. Prezident İlham Əliyev bu günə qədər verdiyi bütün vədləri yerinə yetirib. Çünki sözü imzası qədər qüvvətli olan liderdir!



Bəli, qələbəmizdən iki il yarım keçməsinə baxmayaraq, dövlət başçımızın dediyi kimi: "Bu bölgə nəinki Azərbaycan üçün, dünya üçün nümunəvi bölgə olacaq. Biz hər şeyi planlı şəkildə edirik. Əlbəttə ki, tələsirik, amma, eyni zamanda, tələskənliyə yol vermirik. Bütün tender prosedurları keçməlidir, şəffaflıq tam təmin edilməlidir, orada heç bir inhisarçılıq olmamalıdır. Açıq tender prosedurları təmin edilir və ediləcək. İctimaiyyətə müntəzəm olaraq məlumat verilməlidir və veriləcək".

### AZƏRBAYCAN HEÇ BİR BEYNƏLXALQ MALİYYƏ QURUMUNDAN YARDIM ALMADAN QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURU ÖZ İQTİSADİ QÜDRƏTİ HESABINA YENİDƏN QURUR

Hər kəsə bəllidir ki, Qarabağ və Şərqi Zəngəzurun bərpasını Azərbaycan dövləti öz maliyyə imkanları hesabına həyata keçirir. 2021-ci ildə bu məqsədlə dövlət büdcəsindən 2,2 milyard manat vəsait ayrılmışdı. 2022-ci ilin dövlət büdcəsində də bu həcmdə vəsait nəzərdə tutulmuşdu. Lakin ötən ay dövlət büdcəsinin gəlir və xərcləri artırılıb. Artan büdcə gəlirlərinin 470 milyon manatı işğaldan azad olunmuş ərazilərin bərpasına yönəldilib. Beləliklə, son iki ildə işğaldan azad olunmuş ərazilərdə bərpa və yenidənqurma işlərinin aparılmasına ümumilikdə 4 milyard 870 milyon manat vəsait ayrılıb. Bu reallıq bir daha sübut edir ki, Azərbaycan heç bir beynəlxalq maliyyə qurumundan yardım almadan Qarabağ və Şərqi Zəngəzuru öz iqtisadi qüdrəti hesabına yenidən qurur.

Ötən ilin oktyabr ayının 26-da təməli qoyulan, Zəngəzur dəhlizinin bir parçası hesab edilən Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun tikintisi də sürətlə davam etdirilir. Uzunluğu 123,8 km olan bu yol 4-6 hərəkət zolaqlı olacaq.

Dəhlizin funksiyasını dəyərləndirərkən Prezident İlham Əliyev vurğulayıb ki, Azərbaycan bu dəhlizə sadəcə olaraq dəmir yolu kimi baxmır. Çünki bu dəhlizdən həm dəmir yolu, həm avtomobil yolu keçəcək. Növbəti mərhələdə oradan Naxçıvana elektrik xətlərinin çəkilməsi də nəzərdə tutulub. Eyni zamanda qaz xətləri də dəhlizdən keçə bilər. Yəni Prezidentin də söylədiyi kimi, Zəngəzur dəhlizi bütün Zəngəzur bölgəsini əhatə etməlidir.

Bir sözlə, bu gün Qarabağ və Şərqi Zəngəzur sürətlə dirçəlir, tarixi torpaqlarımıza həyat qayıdır. İşğaldan azad edilən tarixi torpaqlarımızda görülən bütün bu irimiqyaslı işlər birbaşa Prezident İlham Əliyevin şəxsi diqqəti və nəzarəti altında həyata keçirilir. Çünki hər zaman çıxışlarında "Bu gün biz gələcəyi yaradırıq, öz əllərimizlə yaradırıq", söyləyən İlham Əliyev bildirir ki, bu istiqamətdə qarşıya qoyulan bütün hədəflər təmin edilir, 30 il ərzində əziyyət, mənəvi əzab içində yaşamış köçkünlərin qısa müddət ərzində öz doğma torpaqlarına qaytarılması üçün mühüm layihələr gerçəkləşdirilir.

Bir sözlə, dövlət başçısının düşünülmüş iqtisadi konsepsiyasının tam doğru formada icrası həm Azərbaycana böyük iqtisadi və siyasi dividendlər qazandıracaq, həm də dünya bir daha şahidi olacaq ki, Prezident İlham Əliyev hər zamankı kimi verdiyi vədləri uğurla gerçəkləşdirən qətiyyətli liderdir. Bu günün reallıqları isə bir daha göstərir ki, Azərbaycan düzgün yolda gələcəyə doğru inamla addımlayır. Və bu gün Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə azad edilmiş kəndlərimiz, şəhərlərimiz yenidən, qurulur, dirçəlir. Bütün işlər ardıcıl və sistemli şəkildə həyata keçirilir.

Bir sözlə, bütün bu deyilənlərə əsaslanaraq bir daha əminliklə söyləmək olar ki, 30 illik işğala 44 gündə son qoyan və bu gün Zəfər yürüşünü inamla davam etdirən Azərbaycan Qarabağ və Şərqi Zəngəzuru cənnətə çevirməklə, Böyük Qayıdışı ən yüksək səviyyədə təmin etməklə bir daha öz qüdrətini bütün dünyaya nümayiş etdirəcək və insanlarımız yurd həsrətinə son qoyaraq öz doğma torpaqlarında firavan yaşayacaqlar.

**RƏFİQƏ KAMALQIZI**





# Yerli turizm: pis xidmət və astronomik qiymət?

*Quru sərhədlərinin bağlı qalması turizmin inkişafına zərbə vurur, qiymətlərin bahalığı isə yerli turistlərin azalmasına səbəb olur*

***Dünya üzrə ümumi məhsulun 10, ixracatın 8 faizi beynəlxalq turizmin payına düşür. Dünyada əməkqabiliyyətli əhalinin 8 faizi turizm industriyasında və onunla bağlı iqtisadiyyat sahələrində məşğuldur. Bəzi ölkələrinin gəlirlərinin yarıdan çoxu bu sahənin payına düşür. Turizm sektoru iqtisadiyyatın daimi xarakter daşıyan ekoloji baxımdan zərərsiz və tükənməyən sahəsi kimi böyük perspektivlərə malikdir. Bəs əlverişli təbii-coğrafi vəziyyəti, böyük turizm potensialı olan Azərbaycanda bu sektor hansı perspektivlər vəd edir? Bu sahədə hansı irəliləyişlər, hansı problemlər var? Bunu aydınlaşdırmağa çalışacağıq.***

### Xaricə istirahətə gedən turistlərin sayı artır

Turizm qeyri-neft sektorunun prioritet sahələrindən biri kimi təsbit edilib. Rəsmi elan olunan hədəf Azərbaycanda turizmin ÜDM-də payını 2025-ci ilədək 3%-ə çatdırmaq idi. Artıq 2022-ci ilədək bu hədəfə nail olunmuşdu. Lakin pandemiyanın başlaması bütün dünyada olduğu kimi, Azərbaycanda da bu sektoru tənəzzülə uğratdı. Pandemiyadan sonrakı dövrdə turzim sektorunun bərpası üçün imkanlar bərpa olunur. Əksər ölkələr quru sərhədlərini açıb və milyonlarla turist qəbul etməyə başlayıblar. Lakin Azərbaycanın quru sərhədlərinin hələ də bağlı qalması ölkəyə turist axınını dayandırır.

Hazırda ölkədə 150-dən artıq turizm şirkəti, 500-dən artıq mehmanxana fəaliyyət göstərir. Pandemiyadan qabaq ölkəyə ildə 2 milyon turistin gəlirdi, indi bu rəqəmin bərpa olunması və hətta bundan daha yüksək göstəriciyə çatdırılması üçün bütün imkanlar var.

Lakin bu sahədə bəzi problemlər var ki, onlar turizmin inkişafına mane olur. Bu da əsasən qiymətlərin yüksəkliyi və xidmətlərin zəifliyi ilə bağlıdır. Məlum olduğu kimi, ölkəmizdə istirahət ocaqlarının böyük əksəriyyəti ildə yalnız 4-5 ay fəaliyyət göstərir və onlarda yay mövsümündə qiymətlər xarici



ölkələrdəki daha üstün istirahət mərkəzlərinin qiymətlərindən yüksək olur. Bu obyektlərdə servis sahələri lazımi tələblərə cavab vermir.

Bu mövsüm quru sərhədlərin bağlı olması səbəbindən istirahətini ölkəmizin regionlarında keçirməli olan vətəndaşlarımız sosial şəbəkələrdə bahalıqdan və pis xidmətdən şikayətlənirlər. Qeyd olunur ki, adi bir kafedə və ya restoranda qiymətlər digər yerlərdən 3-4 dəfə bahadır. Hətta, yerli turstlərdən biri bir gölün kənarında adi çayın 60 manata satıldığını yazıb tənqid etmişdi. Üstəik, yeni kəşf olunmuş "servis haqqı" dələduzluğu ilə müştəriləri soyurlar. Hətta bəzi yerlərdə meşəyə, çaya, gölə, şəlaləyə gedən yolu kəsib "bura giriş pulludur" deyərək baxmaq üçün pul tələb edirlər. Halbuki bu yerlər xalqın ümumi əmlakıdır.



Aydındır ki, turizm mərkəzinə üz tutan xarici turistlər istirahəti yalnız dadlı yemək, yatmaq və təbiəti seyr etməkdə görmür. Turistlərin böyük əksəriyyətinin arzusu istirahət zamanı tarixi və mədəni abidələr ilə tanış olmaq, maraqlı marşrutlarla (at üstündə, velosipedlə, qayıqla, piyada və s.) səyahət etməkdən ibarətdir. Bu xidmətlər isə demək olar ki, yoxdur. Məhz bu səbəbdən, öz vətəndaşlarımız da ölkədəki istirahət mərkəzlərinə üz tutmurlar.

### Yerli turistlər yerli turizm mərkəzləri haqda nə düşünür?

Azərbaycanlıların ən çox getdiyi ölkələr sırasında qonşu ölkələr- Gürcüstan, Rusiya, Türkiyə, İran əsas yer tutur. Bəs bunun səbəbləri nədir? Mövzu ilə bağlı sosial şəbəkədə kiçik bir sorğu keçirdik. "Azərbaycanda turizmin inkişafına əngəl olan hansı problemləri qeyd edərdiniz" sualına respondentlər maraqlı cavablar veriblər...

Anar Həsənov: Ən böyük problem xidmət səviyyəsindədir. Bizdə nəinki daha tələbkar xarici turisti, heç o qədər də tələbkar olmayan yerli turistləri belə qane edəcək normal xidmət səviyyəsi yoxdur. Əgər bir araşdırma aparsalar görərlər ki, ölkəyə gələn xarici turistlərin heç biri 2-ci dəfə bura gəlmir.

Leyla Əliyeva: Məncə ən çox zərər vuran qiymətlərin bütün dünyadan baha olmasıdır. Bir neçə il əvvəl Gürcüstanda, Batumidə istirahət etdim, günü 25 manata 3 ulduzlu oteldə, normal istirahət mərkəzində dincəldik. Hər gün 2-3 saatlıq ekskursiyalar təşkil olunurdu. Turist bu qiymətə belə imkanı buraxıb bizim bahalı turizm mərkəzlərinə niyə gəlsin ki?

Kəmalə Məmmədova: Bizdə turizm oteldə yatmaq yerini və yeməkləri çox baha qiymətə satmaq kimi başa düşülür. Ən yaxşı halda iri bir hovuz düzəldirlər. Belə mərkəzlərdə tünlük olur və istirahət etmək mümkün deyil. Səs-küydən qulaq tutulur. Bizim turizm mərkəzlərinin çoxunda gəzilesi, görüləsi yerlər yoxdur. Ağac, hovuz, gül-çiçək, heyvan heykəlləri elə hər yerdə var.

Hikmət Həsənov: Turizm sahəsi üzrə mütəxəssis kimi deyə bilərəm ki, bizdə hələ ki müvafiq infrastruktur və xidmət bərbad vəziyyətdədir. Turizm deyəndə turizm obyektləri sahiblərinin ağlına ancaq kabab satmaq və otağı baha qiymətə müştəriyə sırımaq gəlir. Əslində, turizm tam fərqli bir şeydir. Floristləri, faunaçıları, arxeoloqları, etnoqrafları ölkəyə cəlb etmək lazımdır. Eyni zamanda, coğrafi, tarixi, etnoqrafik, nəbatat və müalicəvi turizmi də inkişaf etdirib, ölkəyə kulli miqdarda pul qazandırmaq olar.

### Turizmin inkişafı təkcə dövlətin işi deyil...

Geniş imkanlar olmasına baxmayaraq, Azərbaycana nəinki əcnəbi turistlərin marağı artmır, hətta yerli vətəndaşlar da ölkəmizdə mövcud olan müalicəvi turizm xidmətlərindən lazımi qədər yararlanmırlar. Yerli turistlərin böyük əksəriyyəti müalicəvi istirahət üçün Rusiyaya, əyləncəli istirahət üçün isə Türkiyə və Gürcüstana üz tuturlar.

Qonşu ölkələr turizmin inkişafına böyük diqqət ayırırlar. Bu səbəbdən də böyük gəlirlər əldə edirlər. Biz belə bir güclü rəqabət şəraitində turizmi inkişaf etdirməliyik. Bunun üçün də bu sektora daha böyük diqqət ayrılmalı, problemlər həll olunmalıdır.

Turizmin Azərbaycanda bütün növlərinin inkişafı üçün potensial da var, iş də görülür. Bizdə ekoturizmin, kənd turizminin, nəqliyyat turizminin, arxoturizmin, ekstrim (idman) turizmi, qış turizminin inkişafı üçün ciddi işlər görülür. Bizim milli yeməklərimiz var ki, onlar həm ucuz başa gəlir, həm də dadlı və xeyirli yeməklər kimi turistləri cəlb edə bilər. Onları markalaşdırmaq, təbliğ etmək, dünyaya tanıtmaq lazımdır. Bunun üçün də qida mütəxəssisləri hazırlamağa ehtiyac var. Turizm sektorunun inkişafı həm də məşğulluq probleminə müsbət təsir edə bilər. Yüz minlərlə insan işlə təmin oluna bilər.



Nəqliyyat turizmi üçün də yaxşı imkanlarımız var. Dənizdə, çaylarda, xüsusilə Kür çayında gəmi turizmi, dəmiryolunda turist marşrutları, avtomobil, velosiped turları təşkil edilməsinə çalışmalıyıq. Regionlarda maraqlı muzeylər, təbii adibələr, tarixi abidələrimiz var. Onlara turist marşrutları təşkil etmək işini gücləndirmək lazımdır.

Turizmin inkişafı ilə bütövlükdə xidmət sektoru inkişaf edəcək. Hesablamalara görə, turizm sektoru 60-dan çox iqtisadiyyat sahəsinin inkişafına müsbət təsir edir. Ölkəyə gələn turistlərdən həm aqrar sektor, həm yüngül sənaye, həm xidmət sektoru, həm maliyyə-bank-sığorta sistemi, həm nəqliyyat, həm rabitə, həm səhiyyə sektoru qazanır.

Beynəlxalq miqyasda Azərbaycanın turizm potensialı reklam və təbliğ olunur, böyük layihələr və konfranslar keçirilir. Dövlət əlindən gələni edir. Amma bunu təkcə dövlət etməli deyil, turizm şirkətləri də burda maraqlı olmalıdır. Görülən işlər qənedici olmalıdır. Potensial çoxdur, perspektivlər yüksəkdir, qalır bu işləri ardıcıl yerinə yetirmək.

**Elçin Bayramlı**

ARAŞDIRMA

# “Qisas” əməliyyatı: terror və təxribatlara layiqli cavab

***Tarix boyu Azərbaycana qarşı işğalçılıq siyasətini yeridərək torpaq iddiası ilə ölkəmizə əl uzadan ermənilərə Azərbaycan 44 günlük Vətən müharibəsində elə bir dərs verdi ki, bu tarix heç zaman unudulmayacaq. Əlbəttə ki, Azərbaycan ordusu yeni tarix yazdı. Azərbaycanın ərazi bütövlüyünün bərpası üçün Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Milli Ordumuzun şücaəti, igidliyi nəticəsində torpaqlarımız işğaldan azad olundu.***



## *Prezident İlham Əliyev: "Qisas" əməliyyatının çox təsirli, ancaq qısamüddətli olması onu göstərir ki, bizim gücümüz də yerindədir"*

Azərbaycan ordusu düşməni öz torpaqlarından qovdu. Cənab Prezidentin vurğuladığı kimi, ”Otuz il ərzində Ermənistan rəhbərliyi ”güclü ordusu” haqqında uydurmalar ortalığa atırdı, ”yenilməz Ermənistan ordusu” barədə miflər yaradırdı. Haradadır bu ”yenilməz Ermənistan ordusu?. Bu, mif idi, bu, yalan idi. Bunu biz yerə vurduq”. Azərbaycan bayrağı işğaldan azad olunan torpaqlarımıza sancıldı və bu, hər kəsin 30 ilə yaxın bir zamanda gözlədiyi möhtəşəm hadisə idi.

Bu gün Azərbaycan Ordusu bölmələrinin keçirdiyi ”Qisas” əməliyyatından bir il ötür. Rusiya Federasiyası sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri 10 noyabr 2020-ci il tarixli Bəyanatın müddəalarını kobud surətdə pozaraq avqustun 3-də Azərbaycan Ordusunun bölmələrinə qarşı terror-təxribat əməli törədib. Terror-təxribat nəticəsində hərbi qulluqçumuz əsgər Kazımov Anar Rüstəm oğlu şəhid oldu. Əməliyyat çərçivəsində qeyri-qanuni erməni silahlı ünsürlərinin bir neçə döyüş mövqeyi dağıdıldı, keçmiş Ağdərə rayonunun Yuxarı Oratağ yaşayış məntəqəsindəki hərbi hissəyə havadan zərbə endirildi. Ordumuz Buzdux dağı və ətraf yüksəklikləri azad etməklə həm də hərbi-strateji əhəmiyyətli Ağdaban, Çayqovuşan, Vəngli, Narıştar kəndləri, habelə ”Sərsəng” su anbarına viziual nəzarət etmək imkanı qazandı. ”Qisas” cavab əməliyyatı bir daha erməniyə Azərbaycan Ordusunun gücünü göstərmiş oldu. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirmişdir: ”Ermənistan tərəfi növbəti dəfə silahlı təxribata əl atdı və bu hərbi təxribat nəticəsində bir hərbçimiz şəhid olmuşdur. Allah onа rəhmət eləsin. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Ancaq hər kəs gördü və görməlidir ki, şəhidimizin qanı yerdə qalmadı. Biz dərhal ”Qisas” əməliyyatı keçirərək şəhidimizin qanını aldıq və qarşı tərəfi ciddi cəzalandırdıq”. Bir neçə saat ərzində davam edən ”Qisas” əməliyyatının cəza tədbiri olduğunu deyən dövlətimizin başçısı vurğulayıb ki, Azərbaycan şəhidinin qanı düşmənlərə baha başa gəldi və onlar bunu unutmamalıdır: ”Əgər yenə də buna oxşar təxribat törədilərsə, cavab da eyni olacaq. Heç kim bizə mane ola bilməz, heç kim bizi durdura bilməz”. Əlbəttə ki, ölkəmizin suveren ərazilərində törədiləcək istənilən terror və təxribatın qarşısı qətiyyətlə alınacaq və əks cavab tədbirləri daha da sarsıdıcı olacaqdır.

”Biz öz torpağımızda istənilən zaman istənilən əməliyyatı apara bilərik. Sadəcə olaraq, ”Qisas” əməliyyatının çox təsirli, ancaq qısamüddətli olması onu göstərir ki, bizim gücümüz də yerindədir, eyni zamanda, biz yeni müharibə istəmirik. Çünki İkinci Qarabağ müharibəsi gücümüzü göstərdi və biz istədiyimizə hərbi və ondan sonra hərbi-siyasi yollarla nail olduq. Digər arzularımıza da çatacağıq, zaman gələndə onlara da çatacağıq”, - Ali Baş Komandan əlavə edib.

Əlbəttə ki, Zəfər tariximizə qədər Azərbaycan Ordusunun şanlı tarixində mühüm yerlərdən birini tutan 2016-cı ilin Aprel döyüşləri artıq düşmənə Azərbaycanın gücünü göstərmişdir. ”2016-cı ildə Aprel döyüşlərində düşmənə dərs verdik və Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini düşməndən azad etdik”- deyən Cənab Prezident 2018-ci ildə uğurlu Naxçıvan əməliyyatı nəticəsində on min hektardan çox torpaq sahəsinin Azərbaycan Ordusu tərəfindən götürüldüyünü və işğalçıların o bölgələrdən qovulduğunu qeyd etmişdir: ”Azərbaycan Ordusu tərəfindən götürülmüş strateji yüksəkliklər imkan verir ki, biz Ermənistanın bir neçə yaşayış məntəqəsinə nəzarət edək. Ermənistandan Dağlıq Qarabağa gedən avtomobil yolu bizim nəzarətimizdədir. Vaxtilə - 1990-cı illərin əvvəllərində Naxçıvan ərazisinin bir hissəsini işğal etmiş Ermənistan qüvvələri həmin ərazilərdən qovuldu, çıxarıldı, o torpaqlarda Azərbaycan bayrağı ucaldıldı”. 26 il işğal altında olan Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Günnüt kəndi və ətrafındakı mühüm strateji əhəmiyyətli yüksəkliklərin Əlahiddə Ümumqoşun Ordunun əks-həmlə əməliyyatları ilə işğaldan azad edilməsi ordumuzun növbəti uğuru kimi tarixə yazıldı.

### “DƏMİR YUMRUQ” YERİNDƏDİR

44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən təsdiqlənən mükəmməl hərbi strategiya və taktika döyüş meydanında Azərbaycan Ordusunun ”Dəmir yumruq” əməliyyatını sürətlə və az itki ilə həyata keçirməyə imkan verdi. Azərbaycan Prezidenti İlham Əliyevin dediyi kimi, O, ata vəsiyyətini, Ümummilli Lider Heydər Əliyevin ən böyük arzusunu – Qarabağın mənfur düşmənlərdən, işğalçı ermənilərdən azad olunmasını gerçəkləşdirdi.

Əlbəttə ki, bu Zəfər hər bir azərbaycanlının başını uca edib, onları qürurlandırıb. Bu gün dünya ölkələrinə müxtəlif məqsədlərlə səfər edən insanlarımız Qalib xalqın nümayəndəsi olaraq fəxarət hissi keçirirlər.

Azərbaycanın əzəli, tarixi torpaqları bu gün işğaldan azad olunub. Hər bir ərazidə böyük abadlıq-quruculuq işlərinə başlanılıb. ”Hər kəs gücümüzü gördü. Hər kəs qüdrətimizi gördü, iradəmizi gördü”, - deyən Prezident bildirib ki, bu dəmir yumruq onların belini qırdı, onların başını əzdi: ”Bu, birlik yumruğudur, bu, güc yumruğudur. Bundan sonra Azərbaycan yalnız inkişaf, tərəqqi yolu ilə gedəcək. Bundan sonra da biz ordu quruculuğu işində əməli addımlar atacağıq, ordumuzu daha da gücləndirəcəyik. Bütün göstərişlər verildi. İradəmiz də var, təcrübəmiz də var - əvəzolunmaz təcrübə. İndi bütün ölkələr bu Vətən müharibəsinin təcrübəsini öyrənirlər. Vəsaitimiz də var. Xalq-iqtidar birliyimiz də var. Biz göstərmişik ki, böyük xalqıq, qürurlu xalqıq. Düşməni yerə vurduq. Düşmənin belini qırdıq, məhv etdik. Bu, tarixi Qələbədir. Bu Qələbə Azərbaycan tarixində əbədi qalacaq, şanlı Qələbə kimi!” Bu gün də Cənab Prezidentin dəfələrlə vurğuladığı kimi, ”dəmir yumruq” yerindədir.

### QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR TİKİNTİ MEYDANÇASINA ÇEVRİLİB

Bu gün işğaldan azad olunan ərazilərimizdə aparılan abadlıq-quruculuq işləri Azərbaycan dövlətinin və xalqının quruculuq əzminin daha bir nümunəsinin təzahürüdür. Şəhər, kənd və qəsəbələr əsl tikinti meydançasına çevrilib. İşğaldan azad olunduqdan dərhal sonra Prezident İlham Əliyevin göstərişi ilə Qarabağ və Şərqi Zəngəzurda nəhəng bərpa və yenidənqurma işlərinə başlanılıb.

Şuşada, Zəngilanda, Laçında və digər ərazilərdə aparılan genişmiqyaslı abadlıq-quruculuq işləri davam edir. Azərbaycan Prezidenti İlham Əliyevin və Birinci xanım Mehriban Əliyevanın bu ərazilərimizə səfərləri zamanı görülən işlərlə tanışlıq və təməlqoyma mərasimlərinin keçirilməsi böyük abadlıq-quruculuq işlərinin davamı olmaqla yanaşı, görülən işlərin sürətlə aparıldığını bir daha təsdiqləmiş olur. Tamamilə yeni bir dövr yaşanılır və bu torpaqların əzəli sakinlərinin işğaldan azad edilmiş torpaqlara mərhələ-mərhələ qayıdışı böyük canlanmaya səbəb olub. Ağalı kəndinə əhalinin köçürülməsi Böyük Qayıdışın ilk sorağı idisə, bün artıq bu istiqamətdə aparılan işlərin məntiqi olaraq köç karvanları digər ərazilərimizə də yol alırlar. Ağalı, Talış kəndi, sonra isə Laçın İlk olaraq 20 ailə Laçına yerləşdirildi. Bu davamlıdır. İşğaldan azad edilmiş bütün ərazilərimizdə, o cümlədən Laçın rayonunda abadlıq-quruculuq işləri sürətlə davam etdirilir. Yeni yollar salınır, infrastruktur qurulur, kəndlər, qəsəbələr bərpa edilir. Planlı və sistemli şəkildə görülən bütün işlər bilavasitə dövlətimizin başçısı cənab İlham Əliyevin nəzarəti altındadır. Müharibədən ötən müddət ərizində görülən işlər bu ərazilərdə əzəli sakinlərin tam yaşayışının təmin edilməsinin təzahürüdür. Köçürülən ailələr, Laçın şəhərində vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra dövlətimizin başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşıblar.

### BÖYÜK QAYIDIŞ: BƏRPA VƏ QURUCULUQ

Cəbrayıl rayonunun Şükürbəyli kəndinin təməlinin qoyulması da bu ərazilərdə tezliklə yeni həyatın başlanacağından xəbər verir. Şükürbəyli kəndində 1042 ailənin məskunlaşması planlaşdırılıb. Layihələndirilən ümumi ərazi 298 hektardır. Burada məskunlaşacaq əhalinin yaşayış yükünü nəzərə alaraq, məhəllələrin salınmasının birinci mərhələsi üçün 184 hektar torpaq sahəsi ayrılıb. Bu mərhələdə kənddə 635 fərdi evin tikilməsi nəzərdə tutulur. Baş plana əsasən, bu kənd ərazi vahidinə görə bir-birinə yaxın olan Dəjəl, Şıxəliağalı kəndləri və Mahmudlu qəsəbəsi ilə birlikdə layihələndirilib. Kənddə məktəb binası, uşaq bağçası, inzibati bina, klub icma mərkəzi və çoxfunksiyalı bina, ticarət mərkəzi, bazar, idman sağlamlıq mərkəzi, tibb məntəqəsi, mərasim zalı, məscid, qonaq evinin inşası planlaşdırılıb. Cəbrayıl rayonunda Xudafərin qəsəbəsinin təməlinin dövlət başçısı tərəfindən qoyulması o deməkdir ki, işğaldan azad olunan hər bir ərazimizdə əzəli sakinlər tezliklə azad və rahat bir şəraitdə yaşamağa başlayacaqlar. Qəsəbə Azərbaycan xalqı üçün tarixi əhəmiyyət daşıyan Xudafərin körpüsünün yaxınlığında, yeni dəmir yolu xəttindən və avtomobil yolundan 7 kilometr məsafədə salınır. Qeyd edək ki, dövlət başçısının Cəbrayıl rayonuna səfəri çərçivəsində bu ərazidə Horovlu kəndinin təməli qoyması ona əsaslanır ki, bütün işğaldan azad olunan ərazilərimizdə görülən işlər paralel olaraq aparılır. Layihələndirilən ümumi ərazi 248,1 hektardır.

Perspektivdə bu kənddə 3470 nəfərin (867 ailə) yaşaması nəzərdə tutulub. Baş plana əsasən, köhnə Horovlunun ərazisini əhatə edən bu kənd ərazi vahidinə görə birbirinə yaxın olan Çapand, Safarşa, Fuğanlı və Həsənqaydı kəndləri ilə birlikdə layihələndirilib. Füzuli rayonunun Dədəli kəndinin təməlinin qoyulması mərasimini də qeyd etməliyik. Kəndin layihələndirilən ümumi ərazisi 314 hektardır. Bu kənddə 4495 nəfərin (1129 ailə) məskunlaşması nəzərdə tutulub. Tikiləcək 1050 fərdi evin hər birinin həyətyanı sahəsi 1200 kvadratmetr olacaq. Birinci mərhələdə Dədəli kəndində 1373 nəfərin yaşayacağı 327 fərdi ev tikiləcək. Kənddə çoxfunksiyalı inzibati bina, məscid və mərasim evi, yanacaqdoldurma məntəqəsi, aptek, idman klubu, tibb mərkəzi, 840 yerlik orta məktəb, 100 yerlik iki uşaq bağçası, istirahət və yaşıllıq zonaları, klub-icma mərkəzi və kitabxana, ticarət obyektləri, bazar fəaliyyət göstərəcək. Dədəli kəndi də tarixi ənənələri qorumaqla müasir üslubda layihələndirilib. Enerjiyə qənaət məqsədilə bu kənddə də alternativ enerjidən istifadə, istilik tutumlu evlərin layihələndirilməsi nəzərdə tutulub. Bu yaşayış məntəqəsində əhalinin məşğulluğunun təmin edilməsi də diqqət mərkəzində olacaq. Kənddə tikinti işlərinin 2025-ci ilin noyabrında başa çatdırılması planlaşdırılır. İşğaldan azad olunan ərazilərin bərpası və Böyük Qayıdışın yüksək səviyyədə təmin edilməsi məqsədi ilə ardıcıl işlər ardıcıl görülür.

***Zümrüd BAYRAMOVA***

RAKURS



# Meşəli cəlladlarının məhşər günü




***Azərbaycanlıların yaşadıqları kənd və qəsəbələrdə, şəhər və iri yaşayış məntəqələrində erməni silahlılarının, terrorçuların, saqqallı-daşnakların törətdiyi vəhşiliklər haqqında çox yazılsa da bu cinayəti törədənlərə layiq olduqları cəzanın veriləcəyi günü çox gözləməli olduq. "Cinayət cəzasız qalmaz", "haqq nazilər, üzülməz", "alma məzlumun ahını, çıxar ahəstə-ahəstə" kimi el məsəlləri dilimizi yağır etsə də cinayətkarlar cəzasız qaldığı kimi, haqq da nazilmişdi, məzlumun ahı da yerdə qalmışdı.***

Nə qədər ki, dünyamızda "at koşturanlar" ədalətsizdir, haqlıya ağız büzənlər, ona rişxənd edənlər çoxdur, nəticə də velə olmalı idi. Amma yenə özümüzə güvənməyimiz işimizə yaradı, başqalarından haray çıxmadığını görən Azərbaycan bir bayraq altında və bir sərkərdənin ətrafında cəm olaraq düşməninə qan uddurdu, onu zəlil günə qoydu...

Qərblilərin "atəşkəs" dediyi dönəmə qədər isə olanlar olmuşdu, erməni cəlladları azərbaycanlılara qarşı bəşər tarixinin ən qəddar üsullarından istifadə edərək vandallıqlar, vəhşiliklər törətmişdilər. Həmin vəhşiliklərdən, cinayətlərdən biri də Xocalı rayonunun Meşəli kəndində baş vermiş soyqırımıdır. Bəli, əsl soyqırımı, kənd sakinləri məhz azərbaycanlı olduqlarına görə, ermənilər tərəfindən ən qəddar üsullarla qətlə yetirilmişdilər. Əvvəlcə rus hərbçiləri kənddə kimdə silah var idisə yığıb aparmışdılar ki, müqavimət göstərən olmasın. Sonra isə dişinə qədər silahlanmış erməni-rus birləşmələri zirehli texnikaların dəstəyi ilə əvvəlcə kəndi mühasirəyə almış, sonra isə kəndə hücum edərək 28 nəfər kənd sakinini, o cümlədən iki ailəni bütünlüklə qətlə yetiriblər. Şahidlərin dediyinə görə qətliamda iştirak edənlərin demək olar ki, əksəriyyətinin kimliyi sakinlərə bəllidir. Amma ötən müddət ərzində həmin caniləri həbs etmək mümkün olmayıb.

Bu gün isə vəziyyət tam fərqlidir. Xocalı, Malıbəyli, Ağdaban, Başlıbel, Cəmilli, Kosalar, Kərkicahan və digər sadalamadığımız kənd və şəhərlərdə törədilən cinayətlərin iştirakçılarının bir qismi, Azərbaycandan kənara çıxmağı bacarsalar da, az olmayan bir qismi hələ də Qarabağ ərazisində gizlənirlər. Onlardan biri Vaqif Xaçatryan adlı cani xəstə adı ilə ərazini tərk etmək istəyərkən Laçın sərhəd-keçid məntəqəsində həbs olundu. Ermənistanda, Qarabağdakı separatçılar arasında vəlvələ yaşanmaqdadır. Xaçatryanın həbs olunmasının səbəbləri açıqlansa da ermənilər Vaqif kimi cinayətkarlara "azadlıq mücahidləri" damğasını vuraraq onu məsuliyyətdən qurtarmağa çalışırlar. Əslində ermənilər və digər "müdafiəçilər" V.Xaçatryana "mücahid" damğası vurmaqla onu bir az da quyunun dərin yerinə salıblar. Yəqin ki, o dairələrdəkilər bilməmiş deyillər ki, həmin o "mücahid" Azərbaycan dövlətinə qarşı separatçı çıxışlar edib, qanuni hakimiyyətə qarşı silahlı münaqişələrdə, müharibələrdə iştirak edib, insanlara qarşı cinayətlər törədib. Bir sözlə, ermənilərin "müdafiəsi" "üzürü günahından böyük" olub.






Haqlı olaraq Meşəli soyqırımının qurbanları beynəlxalq ictimaiyyətə açıq məktubla müraciət ediblər. Müraciətdə deyilir ki, 1991-ci ilin dekabrında Xocalının Meşəli kəndində Ermənistan silahlı qüvvələri tərəfindən soyqırımına məruz qalmış kəndin sakinləri müharibə cinayətkarı, bu günlərdə Laçın yolunda ələ keçirilmiş Vaqif Xaçaturyanı yaxşı tanıyırıq. Onun əlləri dinc insanların - körpələrin, qadınların, qocaların qanına batıb. Otuz iki ildir ki, bizə qarşı Meşəlidə törədilmiş soyqırımı ilə heç bir beynəlxalq təşkilat maraqlanmayıb, heç bir insan hüquqları təşkilatı buna görə Ermənistana etiraz səsini ucaltmayıb, bizimlə sanki heç nə olmamış kimi davranıblar, bu boyda faciəni görməyiblər, eşitməyiblər. Biz yaxşı bilirik ki, məhz görmək istəməyiblər, eşitmək istəməyiblər.

Amma müharibə cinayətkarı Vaqif Xaçaturyan ələ keçən kimi bu təşkilatlar peyda olub, bir-birinin ardınca onun azad edilməsinə çağırışlar edirlər. Biz – Meşəli sakinləri bundan böyük hiddət keçiririk, bunu özümüzə qarşı təhqir, həqarət kimi qəbul edirik. Bu cür çağırışlar yolverilməzdir!

Meşəlidə bizə vurulan yaralar hələ də sağalmayıb. Biz illərdir ki, bu müharibə cinayətlərindən əziyyət çəkirik, doğma yurd yerlərimizdən didərgin düşmüşük.

Bu gün Goranboyda Meşəli kəndindən olan yüzlərlə ailə Meşəli köçkün şəhərciyində kompakt şəkildə yaşayır. Bu gün hər bir Meşəli sakininin tələbidir ki, Vaqif Xaçaturyan və onun kimi digər müharibə cinayətkarları bizim qarşımızda – Azərbaycan məhkəmələrində cavab verməlidir.

Biz bu ədalət anını onillərdir gözləmişik. Bu, çəkdiyimiz iztirablardan, itirdiyimiz doğmalardan, əzizlərdən sonra bizə qalan təsəlli yeridir. Biz illərdir ki, bu günün həsrəti ilə yaşamışıq, bir gün də olsun inamımızı, ümidimizi itirməmişik.

Bəli, Qarabağda gizlənən bütün müharibə cinayətkarları, Xocalı soyqırımını törədən qatillər yaxşı eşitsin ki, daha heç nə əvvəlki kimi olmayacaq. Vaqif Xaçaturyanı azad etməyə çağırış edənlər Meşəli, Xocalı sakinləri qarşısında, Azərbaycan xalqı qarşısında utanmalı, xəcalət çəkməlidirlər.

Meşəli soyqırımı ilə əlaqədar baş verənlərə vaxtında beynəlxalq reaksiya verilsəydi, zəruri tədbirlər görülsəydi, eyni hallar Qaradağlıda, Xocalı şəhərində, Ağdabanda, Ballıqayada, Başlıbeldə və Azərbaycanın daha neçə-neçə yaşayış məntəqələrində təkrarlanmazdı. Bu cinayətlərin qarşısında susqunluq Ermənistan hakimiyyətini işğalı genişləndirməyə, yeni kütləvi qırğınlar törətməyə həvəsləndirmiş oldu.

Təəssüflə qeyd etmək istəyirik ki, Beynəlxalq Qızıl Xaç Komitəsi tibbi evakuasiyasından da sui-istifadə edir. Bu quruma aid olan avtomobillər cinayətkarların sığınacaq yeri olmamalıdır.

Bu gün yenə də müharibə canisi Vaqif Xaçaturyanın Laçın sərhəd-keçid məntəqəsində həbs edilməsi ətrafında Ermənistan ajiotaj yaradılır. Amma özləri də yaxşı bilirlər ki, onların belə cəhdləri mənasızdır, dəhşətli cinayətlər törətmiş qatili müdafiə etməyə çalışmaq nəticə verməyəcək.

***V.SALAH***

# "Nar" ana dilinin inkişafına töhfə verməyə davam edir




Azərbaycan Əlifbası və Azərbaycan Dili Gününə həsr olunmuş natiqlik çempionatı başa çatıb. "Diksiya Akademiyası"nın təşəbbüsü, "Nar"ın və "ASAN Könüllüləri" Təşkilatının dəstəyi ilə keçirilən layihənin əsas məqsədi gənclərin özünü ifadə etmək qabiliyyətini inkişaf etdirmək, onları Azərbaycan dilində səlis danışmağa sövq etməkdir.

Çempionat 3 tur və final mərhələsindən ibarət olmaqla 250-dən çox natiqi bir araya gətirib. Final mərhələsində iştirak haqqı qazanan 10 iştirakçı qalib gəlmək üçün səhnədə beş dəqiqəlik çıxışlarını təqdim ediblər. "Ana dilində hekayəni danış" natiqlik çempionatının qalibi öz xüsusi nitq istedadı ilə fərqlənən Elza Hacıyeva olub, layihədə 2-ci yerin sahibi Murad Hüseynli, 3-cü yerin sahibi isə Türkan Bədəlova seçilərək "Nar" tərəfindən xüsusi hədiyyələrlə mükafatlandırılıblar.

Dilin nəsillər arasında körpü və mədəni ifadə vasitəsi kimi gücünə inanan "Nar" ana dilimizin inkişafına yönəlik layihələri dəstəkləməklə Azərbaycan mədəniyyətinin qorunub saxlanmasına və təbliğinə töhfə verir, eyni zamanda gələcək nəslə ünsiyyətdə və özünüifadədə üstün olmağa imkan yaradır. Mobil operatorun korporativ sosial məsuliyyət sahəsində gerçəkləşdirdiyi layihələrlə nar.az/projects səhifəsindən ətraflı məlumat əldə edə bilərsiniz.

# Şəhər günü-QÜRUR günü...




***"Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 31 iyul 2023-cü il tarixli Sərəncamı ilə yenidən qürur hissi yaşadıq. Çünki Sərəncamda da deyildiyi kimi, Ermənistanın hərbi təcavüzü nəticəsində 30 ilə yaxın işğal altında qalmış əzəli tarixi torpaqlarımız 44 günlük Vətən müharibəsində hərbi-siyasi yolla işğaldan azad olundu və şanlı Zəfərə aparan hər bir gün Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı.***

Rəşadətli Azərbaycan Ordusunun əsgər və zabitlərinin canı, qanı bahasına Vətən müharibəsində Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərləri, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələri, Xocavənd rayonunun Hadrut qəsəbəsi və bir çox kəndləri, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndi daxil olmaqla, ümumilikdə 300-dən çox yaşayış məntəqəsi, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəkliklər işğaldan azad edildi. Qarabağın tacı Şuşa şəhərinin azad edilməsi və Ermənistanın kapitulyasiya aktını imzalamağa məcbur olması ilə müharibə başa çatdı.

Bəli, biz illər, əsrlər sonra da bu şanlı Zəfərin qürurunu yaşayacağıq. Bu qüruru ərazilərimizin işğaldan azad olunduğu tarixlərlə qeyd etməyimiz isə bizim haqqımızdır. Çünki 30 ildə həmin o torpaqların, o şəhərlərin işğalından yetərincə bəhs etmişik, kədərlənib-hiddətlənmişik, ağlayıb-sızlamışıq, köks ötürmüşük. İndi isə o şəhərlərin sevincini yaşamalı, bu şanlı tarixi günləri tariximizin ön səhifələrinə yazmalıyıq.

### 26 avqust – Laçın şəhəri günü

Sərəncamda qeyd edildiyi kimi, Azərbaycanın döyüş meydanında qazandığı böyük qələbə siyasi müstəvidə də öz təsdiqini tapdı – Ermənistan Ağdam, Kəlbəcər və Laçın rayonlarını işğaldan azad etmək məcburiyyətində qaldı və bununla da tarixi ədalət bərpa olundu.

2020-ci ilin həmin gününü- dekabr ayının 1-ni qürurla xatırlayırıq. Dövlətimizin başçısı yenə xalqa müraciət edirdi: "Böyük sevinc hissi ilə bildirirəm ki, Laçın rayonu işğaldan azad olundu. Bütün Azərbaycan xalqını bu münasibətlə ürəkdən təbrik edirəm. Laçın rayonunun işğaldan azad olunması tarixi hadisədir. Özü də bir güllə atmadan biz Laçın rayonunu qaytardıq. Düşməni buna məcbur etdik. Döyüş meydanında əldə edilmiş parlaq qələbə bu gözəl nəticəyə gətirib çıxardı ki, üç rayonumuz – Ağdam, Kəlbəcər və Laçın bizə qaytarıldı. Biz bu rayonları bir güllə atmadan, bir şəhid vermədən qaytarmışıq".

Müraciətdə daha sonra deyilirdi: Laçın rayonunun strateji əhəmiyyəti, eyni zamanda ondan ibarətdir ki, rayon ərazisindən və Laçın şəhərinin içi ilə Laçın dəhlizi keçir. Bildiyiniz kimi, bu dəhliz Rusiya sülhməramlı qüvvələrinin nəzarətinə verilibdir. Dəhliz uzun illər erməni silahlı qüvvələrinin, işğalçıların nəzarətində idi. Deyə bilərəm ki, noyabrın 10-da imzalanmış birgə Bəyanatın ilkin versiyasında bu dəhlizin erməni silahlı qüvvələrinin nəzarətində qalması ilə əlaqədar müddəa var idi. Mən buna etiraz etdim və nəticədə, bu dəhliz Rusiya sülhməramlı qüvvələrinin nəzarətinə verilmişdir. Hesab edirəm ki, bu, çox böyük nailiyyətdir. Laçın dəhlizi erməni işğalçı qüvvələrindən təmizlənib. Onu da bildirməliyəm ki, Bəyanatın ilkin versiyasının üzərində fəal işlər gedirdi, xüsusilə Şuşa şəhəri işğaldan azad olunandan sonra qısa müddət ərzində. Bəyanatın ilkin versiyasında bizə təklif edilirdi ki, Laçın dəhlizinin eni 30 kilometr olsun. Mən buna qəti etiraz etdim və dedim ki, Ermənistan tərəfinin bu iddiası tamamilə əsassızdır. Dəhliz çərçivəsində təhlükəsizlik tədbirlərini təmin etmək üçün bu qədər geniş dəhlizə ehtiyac yoxdur. Ona görə mən bunu tamamilə qəbuledilməz təklif kimi hesab etdim və öz fikrimi bildirdim. Ondan sonra ikinci variantda Laçın dəhlizinin eni 10 kilometr nəzərdə tutulurdu. Buna da mən razılıq vermədim və nəticədə, 5 kilometr eni olan dəhliz haqqında razılıq əldə edildi. Beş kilometr həm bizim üçün, həm Dağlıq Qarabağda yaşayan ermənilər üçün və təhlükəsizliyi təmin etmək üçün kifayət qədər məsafəni əhatə edir.

Budur, artıq 26 avqust bundan sonrakı tariximizdə Laçın şəhəri günü kimi qeyd olunacaq. Həmin gün Laçından-onun dünənindən, bu günündən qürurla yazacağıq.

### 4 oktyabr – Cəbrayıl şəhəri günü

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev: Bu gün Cəbrayıl şəhəri və Cəbrayıl rayonunun doqquz kəndi işğaldan azad edildi. Bu tarixi




hadisə münasibətilə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Cəbrayıl rayonunun və işğal olunmuş digər ərazilərin azad edilməsində fəal iştirak etmiş bütün əsgər və zabitlərimizi ürəkdən təbrik edirəm. Onların qəhrəmanlığı, şücaəti nəticəsində bu gün bizim doğma torpaqlarımız bizə qayıdıb. Bu qanlı döyüşlərdə həlak olmuş bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm, yaralı hərbçilərimizə Allahdan şəfa diləyirəm.

23 avqust 1993-cü il tarixində rayon Ermənistan ordusu tərəfindən işğal edilmiş, yaşayış məskənləri ilə yanaşı, tarixi-dini abidələri də məhv olunmuş, işğal nəticəsində rayona 13,928 milyard ABŞ dolları məbləğində ziyan dəymişdir. Cəbrayıllı məcburi köçkünlər respublikanın 58 rayonunun 2000-dək yaşayış məntəqəsində, çadır düşərgələrində, yük vaqonlarında və yataqxanalarda məskunlaşmışdılar.

4 oktyabr 2020-ci ildə rayonun mərkəzi və bir sıra kəndləri işğaldan azad olunaraq yenidən Azərbaycan torpaqlarına birləşdirildi.

Cəbrayılın sentyabrın 27-də Böyük Mərcanlı, Nüzgar, oktyabrın 3-də Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy və Quycaq, 4-də Cəbrayıl şəhəri və Karxulu, Şükürbəyli, Çərəkən, Daşkəsən, Horovlu, Mahmudlu, Cəfərabad, Yuxarı Maralyan, Decal, 5-də Şıxəli Ağalı, Sarıcalı, Məzrə, 9-da Qaracallı, Süleymanlı, Əfəndilər, 15-də Doşulu, 19-da Soltanlı, Əmirvarlı, Maşanlı, Həsənli, Əlikeyxanlı, Niyazqullar, Keçəl Məmmədli, Şahvəli, Hacı İsmayıllı, İsaqlı kəndləri və əhəmiyyətli yüksəklikləri, mövqeləri, bu ərazilərin fonunda isə Xudafərin işğaldan azad edildi.

Oktyabrın 18-də-Azərbaycanın Dövlət Müstəqilliyi günündə Xudafərin körpüsü üzərində Azərbaycan bayrağı qaldırıldı.

Bu ildən etibarən 4 oktyabrı Cəbrayıl şəhəri günü kimi qeyd edəcəyik. Cəbrayılın işğalından, azadlığından, bugünkü inkişafından, yaxın gələcəkdə isə əhalisinə qovuşmasından söhbət açacağıq.

### 17 oktyabr – Füzuli şəhəri günü

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 17 oktyabr tarixdə Azərbaycan xalqına müraciətindən: Mən bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bu münasibətlə əziz füzulililəri ürəkdən təbrik edirəm. Uzun illərin doğma torpaq həsrəti sona çatır. Biz öz üzərimizə düşən missiyanı şərəflə yerinə yetiririk, ölkəmizin ərazi bütövlüyünü bərpa edirik və bərpa edəcəyik. Füzuli uğrunda döyüşlər ağır döyüşlərdi. Vaxt keçəcək bu döyüşlər haqqında kitablar yazılacaq, əsərlər yazılacaq. Doğrudan da çox böyük peşəkarlıq, məharət, şücaət, fədakarlıq tələb edən döyüşlərdi. Çünki bu 30 il ərzində düşmən təmas xəttində o qədər möhkəm istehkam qurmuşdur ki, bəziləri hesab edirdi ki, Füzuli şəhərini işğaldan azad etmək mümkün deyil. Hətta ən tanınmış hərbi mütəxəssislər də belə fikirdə idi ki, Füzulini götürmək, onu işğaldan azad etmək üçün bəlkə aylarla vaxt lazım olacaq və bu əməliyyat uğurla nəticələnəcək-nəticələnməyəcək hələ böyük sual altında idi. Ancaq müzəffər Azərbaycan Ordusu bu şərəfli missiyanın öhdəsindən gələ bildi və qısa müddət ərzində Füzuli rayonunun əksər kəndləri və Füzuli şəhəri düşmənin tapdağından azad edildi.

Müraciətdə daha sonra deyilirdi: Biz Füzuliyə qayıdacağıq, biz bütün kəndləri yenidən quracağıq, abadlaşdıracağıq. O kəndlərə həyat qayıdacaq. Necə ki, vaxtilə Ulu Öndərin rəhbərliyi ilə Azərbaycan Ordusu Füzuli rayonunun 22 kəndini işğaldan azad edib, o cümlədən Horadiz qəsəbəsini. İndi baxın, görün necə gözəl məkandır. Horadiz qəsəbəsi çox abad, müasir şəhərə çevrilibdir. İşğaldan azad edilmiş kəndlərdə füzulililər yaşayır. Deyə bilərəm ki, bu günə qədər işğaldan azad edilmiş kəndlərdə Füzuli əhalisinin təqribən yarısı məskunlaşıbdır. Ancaq bu gün artıq füzulililərin yaşadıqları kəndlər azad edilib və oraya həyat qayıdacaq, onlar qayıdacaqlar, onlar orada yaşayacaqlar, öz əcdadlarının qəbirlərini ziyarət edəcəklər. Orada bərpa olunacaq




məscidlərdə azan səsi eşidiləcək. Biz öz şərəfli missiyamızı yerinə yetiririk. Mən tam əminəm ki, bundan sonra da şanlı Azərbaycan Ordusu işğalçıları torpağımızdan qovmağa davam edəcəkdir.

Bəli, dövlətimizin başçısının dediyi kimi də oldu. Biz düşməni torpaqlarımızdan qovduq. Qarabağı 30 illik işgəncədən qurtardıq. Budur, azad şəhərlərimizi tarixin səhifələrinə həkk edirik. Bundan sonra hər il oktyabr ayının 17-ni Füzuli şəhəri günü kimi qeyd edib, Zəfərimizin qürurunu yaşayacağıq.

### 20 oktyabr – Zəngilan şəhəri günü




2020-ci il oktyabr ayının 20-si bütün zəngilanlıların sanki yenidən dünyaya gəldikləri gündür, doğum günləridir. 27 illik həsrətin vüsal günüdür. Həmin gün 27 il axıdılan göz yaşlarının sevinc göz yaşlarına çevrildiyi gündür. Tək zəngilanlılar üçün yox, bu gün bütün azərbaycanlılar üçün əziz və unudulmaz gündür. Çünki torpağımızın bir hissəsi, canımızın bir parçası, düşmən əlində olan övladımız azad olunub. Bu xəbəri xalqına verən insandan xoşbəxt insan varmı? Bu insan xoşbəxtliyi bütöv Azərbaycan qədər haqq edən Ali Baş Komandanımızdır.

Ardı Səh. 11

# Şəhər günü-QÜRUR günü...

**Əvvəli-Səh-10**

Cənab İlham Əliyevdən tarixə yazılan yeni şad xəbər: İndi isə əziz xalqımın səbirsizliklə gözlədiyi bizim yaşayış məntəqələrinin azad edilməsi haqqında məlumatı böyük qürur hissi ilə çatdırıram.

Füzuli rayonu – azad edilmiş kəndlərin adları: Dördçinar, Kürdlər, Yuxarı Əbdürrəhmanlı, Qarğabazar, Aşağı Veysəlli, Yuxarı Aybasanlı.

Cəbrayıl rayonu - azad edilmiş kəndlər: Safarşa, Həsənqaydı, Fuğanlı, İmambağı, Daş Veysəlli, Ağtəpə, Yarəhmədli.

Xocavənd rayonu – azad edilmiş yaşayış məntəqələrinin siyahısını çatdırıram: Ağcakənd, Mülküdərə, Daşbaşı, Günəşli (Günəşli kəndinin keçmiş adı Noraşen idi), Vəng. Bu kəndə yeni Azərbaycan adı verirəm. Bundan sonra Vəng kəndi Çinarlı kəndi adlandırılsın. Adı mübarək olsun!

Zəngilan rayonu. Şanlı Azərbaycan Ordusu Zəngilan rayonu ərazisinə də daxil olub, girib və yaşayış məntəqələrinin azad olunması təmin edilib. Zəngilan rayonu ərazisində yerləşən yaşayış məntəqələrinin adlarını çəkirəm: Havalı kəndi, Zərnəli kəndi, Məmmədbəyli kəndi, Həkəri kəndi, Şərifan kəndi, Muğanlı kəndi və Zəngilan şəhəri! Zəngilan bizimdir! Qarabağ bizimdir!"

Bu gün Havalı, Zərnəli, Məmmədbəyli, Həkəri, Şərifan, Muğanlı kəndləri və Zəngilan şəhəri! Zəngilan bizimdir! Qarabağ bizimdir!

Müraciətdə deyilirdi: Bizim məcburi köçkünlərimiz bütün bu illər ərzində bir arzu ilə yaşayıblar, baxmayaraq ki, onların bir çoxları üçün gözəl şərait yaradılıb və bildiyiniz kimi, təkcə bu il biz məcburi köçkünlər üçün 7 min mənzilin istifadəyə verilməsini nəzərdə tuturuq. 300 mindən çox məcburi köçkünə evlər, mənzillər verilibdir. Onlar bu qayğıya görə bizə minnətdarlıq edirlər və mənim onlarla çoxsaylı görüşlərimdə bunu ifadə edirdilər. Ancaq, eyni zamanda, mən bilirdim və onlar mənə deyirdilər ki, bizi qaytarın, öz torpağımıza qaytarın. Başa düşürdülər ki, bu, çətin məsələdir, başa düşürdülər ki, bunun üçün müəyyən geosiyasi şərait yetişməlidir. Mənə inanırdılar və mən onlara deyirdim ki, biz o torpaqlara qayıdacağıq, mən deyirdim ki, bilirəm, nəyi nə vaxt və necə etmək lazımdır. Xalq tərəfindən mənə göstərilən etimad imkan verdi ki, biz bu məsələni həll edək. Mən bir daha bəyan edirəm ki, verilmiş bütün vədləri mən yerinə yetirirəm, verilmiş bütün vədlərə sadiqəm. Prezident kimi mənim fəaliyyətim üçün əsas məsələ, əsas vəzifəm Azərbaycan torpaqlarının qaytarılmasıdır, ərazi bütövlüyünün bərpa edilməsidir və bu gün biz bunu döyüş meydanında edirik.

Budur, 20 oktyabrı bu ildən etibarən Zəngilan şəhəri günü kimi qeyd edəcəyik. Qeyd etdikcə də Zəngilanın dünənini xatırlayacaq, bu günü ilə qürur duyacağıq.

## 25 oktyabr – Qubadlı şəhəri günü

2020-ci ilin oktyabr ayının 25-i yeni Azərbaycan tarixinin növbəti şanlı səhifəsinə çevrildi. Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin xalqa müraciəti yenə də işğaldan azad edilən ərazilərimizin xoş müjdəsi ilə bitdi: "İndi Azərbaycan xalqının səbirsizliklə gözlədiyi siyahıları böyük məmnuniyyət və qürur hissi ilə xalqımın diqqətinə çatdıracağam. Beləliklə, dünən azad edilmiş yaşayış məntəqələrinin siyahısını doğma xalqıma çatdırıram. Zəngilan rayonunda azad edilmiş kəndlər: Birinci Alıbəyli, İkinci Alıbəyli, Rəbənd, Yenikənd. Cəbrayıl rayonunun azad edilmiş kəndləri: Qovşudlu, Sofulu, Dağ Maşanlı, Kürdlər, Hovuslu, Çələbilər. Qubadlı rayonunun dünən azad edilmiş yaşayış məntəqələri: Padar, Əfəndilər, Yusifbəyli, Çaytumas, Xanlıq, Sarıyataq, Mollabürhan və




Qubadlı şəhəri!

Dünən mən artıq bu barədə Azərbaycan xalqına bu sevincli xəbəri verdim. Bir daha bu şad xəbəri bütün Azərbaycan xalqına çatdırmaq istəyirəm. Zəngilan, Cəbrayıl, Qubadlı rayonunun sakinlərinə, bu kəndlərdə yaşamış sakinlərə xoş xəbər çatdırmaq mənim üçün böyük şərəfdir. Düzdür, o kəndlərdən bir şey qalmayıb. Eybi yoxdur, bərpa edəcəyik. Azərbaycan xalqının da, dövlətinin də buna gücü çatacaq. Təki torpağımız azad olsun. Təki bayrağımız işğaldan azad edilmiş bütün torpaqlarda qaldırılsın. Biz əsgərlərimizin, zabitlərimizin canı-qanı bahasına bu torpaqları azad edirik. Həm döyüş meydanında, həm siyasi müstəvidə özümüzü təsdiqləmişik, dünyaya təsdiqləmişik. Azərbaycan xalqını qürurlu xalq kimi, cəsarətli xalq kimi, yenilməz xalq kimi təsdiqləmişik. Heç bir təzyiq bizə təsir edə bilməz. Heç bir hədə-qorxu bizi yolumuzdan döndərə bilməz. Çünki haqq yolundayıq, yumruq kimi birik. Bu birlik əbədidir və əbədi olacaq!

Əziz həmvətənlər, mən hələ müharibənin ilk günlərində sizə söz vermişdim ki, biz düşməni torpaqlarımızdan qovacağıq, sona qədər qovacağıq. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"

Budur, tariximizin səhifələrinə yeni bir əlamətdar gün daxil oldu-Qubadlı şəhəri günü. Hər il təqvimin həmin gününü qürurla qeyd edəcək, erməni əsarətindən xilas edilən yurd yerimizin tarixini yada salacaq və gələcək nəsillərə bu barədə danışmaqla qürur tariximizi yaşadacağıq.

## 8 noyabr – Şuşa şəhəri günü




8 noyabr 2020-ci il. Qarabağın döyünən ürəyi Şuşanın azadlıq müjdəsini xalqına çatdıran Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev: Mən bu gün, eyni zamanda, Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları! Mən bu günlərdə dünya azərbaycanlılarından və Azərbaycanda yaşayan insanlardan minlərlə məktub alıram. Hər gün minlərlə məktub. Sadəcə olaraq, heyfsilənirəm ki, bütün bu məktubları oxuya bilmirəm. Sadəcə olaraq, vaxt çatmır. Nə qədər gözəl sözlər, nə qədər böyük dəstək göstərilir. Bu gün biz bir daha bütün dünyaya sübut edirik ki, biz böyük xalqıq, biz məğrur xalqıq! Biz yenilməz xalqıq! Biz döyüş meydanında düşmənə yerini göstəririk!

Bəli, 28 il əvvəlki 8 mayın üzərindən 28 il sonrakı 8 noyabr xətt çəkdi. Şuşa əbədiyyən Azərbaycana-öz doğma anasına qaytarıldı. Artıq qovuşub iki doğma. Hər il noyabr ayının 8-ni isə Qarabağın baş tacı Şuşa şəhəri günü kimi qeyd etməklə böyük bir tarixi yaşatmış, nəsillərdən-nəsillərə ərməğan etmiş olacağıq.

## 20 noyabr – Ağdam şəhəri günü

44 günlük Vətən müharibəsində olduğu kimi, 10 noyabrda imzalanan üçtərəfli Bəyanatın ilk qələbə müjdəsini də Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevdən aldıq: Mən bu gün Ağdamın azad olunması xəbərini xalqıma böyük qürur hissi ilə çatdırıram, bu müjdəni verirəm. Bu gün bizim yaşadığımız günlər, yaşadığımız anlar, əminəm ki, hər bir azərbaycanlının yaddaşında əbədi qalacaq. Biz tarix yazırıq, yeni tarix. Xalqımızın, ölkəmizin yeni şanlı tarixini yazırıq. Bu, Zəfər tarixidir. Bundan sonra biz, ilk növbədə, işğaldan azad edilmiş torpaqlara vətəndaşlarımızın qaytarılmasını təmin etməliyik. Bütün gücümüzü səfərbər etməliyik. Bütün maddi imkanlarımızı səfərbər etməliyik ki, tezliklə vətəndaşlarımızı doğma torpaqlarına qaytaraq.

Müraciətdə deyilirdi: Ağdamın işğaldan azad edilməsi şanlı hərbi Qələbə nəticəsində mümkün oldu. Əgər Azərbaycan Ermənistanı döyüş meydanında məğlub etməsəydi, Ermənistan öz xoşu ilə bizim torpaqlarımızdan çıxmayacaqdı. Bunu deməyə əsas verən bir çox amillər var. İlk növbədə, o bölgələrdə - işğal edilmiş torpaqlarda qurulmuş və böyük vəsait xərclənmiş istehkamlar. O istehkamlar elə qurulub ki, Azərbaycan Ordusu oradan keçə bilməsin. Amma yenə də səhv etmişdilər. Bizim gücümüzü düzgün hesablaya bilməmişdilər. Bilmirdilər ki, bu gün Azərbaycan Ordusu, Azərbaycan vətəndaşı nəyə qadirdir. Bizi o Qələbəyə aparan həm gücümüz, texniki təchizatımız, həm də mənəvi ruhumuzdur. Bilmirdilər ki, Azərbaycan xalqı bütün bu illər ərzində bir arzu ilə yaşayır ki, öz dədə-baba torpağına qayıtsın. Bütün bu amillər və digər amillər bu Qələbəni şərtləndirdi.

Hər il 20 noyabrını Ağdam şəhəri günü kimi qeyd etməklə bu tarixi qələbəni yaşadacaq, ağdamlıların ağ gününü dünyaya yayacağıq.

## 25 noyabr – Kəlbəcər şəhəri günü




Kəlbəcər. Bu qədim yurd yerimizin işğaldan azad olunması həm də bütün dünyanın yaddaşında Azərbaycan xalqının humanistliyi, əsilzadəliyi, insanpərvərliyi ilə qaldı. Kəlbəcərin işğaldan azad olunması ilə xalqımız iki böyük qürurlu səhifə açdı müasir tariximizdə: Kəlbəcər 27 illik işğaldan azad olundu. Azərbaycan xalqı bu yurdu 27 il əsarətdə saxlayan, sərvətlərini talayan, obyektləri, evləri uçurub-dağıdan düşmənə bu torpaqdan çıxması üçün 10 gün daha vaxt verdi. Tək bu fakt 44 günlük Vətən müharibəsində Azərbaycan haqqında bəzi xoşagəlməz fikirlər yürüdən dövlətlərə çox dəyərli cavabdır. Üçtərəfli razılaşmaya əsasən noyabrın 15-də Kəlbəcərdən çıxmalı olan düşmənə 10 gün vaxt verilməsi ölkəmizin Prezidenti, Ali Baş Komandanımız cənab İlham Əliyevin siyasətində xüsusi bir mərhələni təşkil edir. O mərhələ ki bu addımla Azərbaycan xalqının kimliyini bir daha dünyaya bəyan etdi.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandanımız cənab İlham Əliyev: -Əziz həmvətənlər. Bu gün Kəlbəcər rayonu işğaldan azad olundu. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Əziz kəlbəcərlilər, gözünüz aydın olsun! Doğma rayonunuz işğaldan azad olundu. Bu günü Azərbaycan xalqı uzun illər ərzində səbirsizliklə gözləyirdi. Kəlbəcər rayonu 1993-cü il aprelin 2-də işğal edilmişdir. Günahsız insanlar öz dədə-baba torpağından vəhşicəsinə qovulmuşdur. Kəlbəcərin tarixi abidələrinə, təbiətinə böyük ziyan vurulmuşdur.

...Biz Kəlbəcəri bərpa edəcəyik, heç kimin şübhəsi olmasın və həyat qayıdacaq. Kəlbəcərdə kənd təsərrüfatı inkişaf edəcək, xüsusilə heyvandarlıq. Bizim orada böyük otlaq sahələrimiz var. Kəlbəcərin zəngin təbii qaynaqları, təbii ehtiyatları var. Düşmən bu ehtiyatları vəhşicəsinə istismar edib. Sovet vaxtında bütün sovet məkanında məşhur olan İstisu suyu Kəlbəcərdə istehsal olunurdu. İndi İstisu da bizim nəzarətimizə qayıdır. Vaxtilə ora böyük kurort zonası idi. Mənfur düşmən hər tərəfi dağıdıb. İndi o görüntülər var, hər kəs görə bilər. Hamısını bərpa edəcəyik, Kəlbəcəri yenidən quracağıq, kəndləri, Kəlbəcər şəhərini. Tapşırıq vermişəm ki, şəhərin yenidən qurulması ilə əlaqədar baş plan hazırlansın, təkcə Kəlbəcər şəhəri yox, bütün şəhərlər üzrə həyat qayıdacaqdır.

25 noyabr Kəlbəcər şəhəri günüdür. Həmin tarix bundan sonra əsrlər boyu bu qədim yurd yerinin tarixindən söhbət açacaq, nankor qonşumuz ermənilərin pis xislətinin əzəli ata-baba torpağımıza vurduğu ziyanı diqqətlərə yenidən çatdıracaq və tarixi qələbəmizlə qürur duyacağıq.

## Biz Qarabağa və Şərqi Zəngəzura qayıdırıq

Sərəncamda o da qeyd olunur ki, 30 illik işğal dövründə Ermənistan tərəfindən şəhərlərimiz, kəndlərimiz, qəsəbələrimiz viran edilmiş, mədəni irsimizə böyük zərbə vurulmuş, tarixi-mədəni və dini abidələrimiz, məscidlərimiz dağıdılaraq vandalizmə məruz qalmışdır. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur hazırda yenidən qurulur, ərazilər minalardan təmizlənir, sürətlə genişmiqyaslı bərpa və yenidənqurma işləri aparılır.

Məcburi köçkünlərin öz doğma yurdlarına dönüşü üçün Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli 3587 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrasına başlanılmışdır. Artıq Zəngilan rayonunun Ağalı kəndinə, Tərtər rayonunun Talış kəndinə və Laçın şəhərinə məcburi köçkünlərin qayıdışı təmin olunmuşdur və bu istiqamətdə işlər davam etdirilir.

Təqvimimizin yeni əlamətdar günləri-şəhər günləri yeni tariximizin qürur dolu səhifələridir. Bu səhifələri bizə bəxş edən dövlətimizin başçısına, milli ordumuzun zabit və əsgərlərinə, torpaqlarımız uğrunda canından keçən şəhidlərə və sağlamlığını itirən qazilərə minnətdarıq. Təqvimə salınan bu yeni günlər gələcək nəsillərin tariximizi dərindən öyrənməsi nöqteyi-nəzərindən böyük əhəmiyyətə malikdir. Eyni zamanda yaşanan və yaşadılacaq tarixdir.

***Mətanət Məmmədova***

## “Azərbaycan üçün Qərb mətbuatının nə yazması önəmli deyil”

***“Hesab edirəm ki, ümumilikdə sözügedən müsahibədə cənab Prezident çoxsaylı mühüm məqamlara toxunub: “Toxunduğu mühüm məqamlardan biri də “Human Rights Watch”, “Amnesty International” və “Freedom House” təşkilatlarının fəaliyyətidir.***



DEPUTAT MÜNASİBƏT BİLDİRDİ

Əslində Azərbaycan müstəqilliyini əldə etdikdən sonra davamlı olaraq bu təşkilatlar ölkəmiz əleyhinə məlumat yaymaqla və təbliğat aparmaqla məşğul olublar. Biz bunu Vətən müharibəsi dövründə də gördük. Vətən müharibəsi dövründə və ondan sonra davamlı olaraq bu kimi addımlar atılır. Ermənistanda zaman-zaman insan hüquqlarının pozulmasına baxmayaraq, sözügedən təşkilatlar heç vaxt bu ölkə barəsində bir belə məlumatı yaymırlar. Ancaq mövzu Azərbaycan olduqda, ağına-bozuna baxmadan ölkəmizi qaralayırlar. Həqiqətdən uzaq, məqsədli şəkildə təhrif olunmuş hesabatların şahidi oluruq. Təbii ki, bütün bunlar sifarişli materiallardır. Üstəlik, sözügedən təşkilatlar Ermənistanla sıx bağlıdır. Eyni zamanda bir sıra hallarda bu təşkilatlar erməni lobbisi tərəfindən maliyyələşdirilir. Bütövlükdə zaman-zaman bu təşkilatlar erməni diasporu ilə sıx əlaqədə olur. Əlbəttə ki, Azərbaycan belə haqsızlıqlara öyrəşib. Artıq biz uzun müddətdir belə yalan məlumatları eşidirik. Ona görə də insan hüquqlarının müdafiəsindən dəm vuran bu təşkilatların müstəqil olmasından danışmaq mümkün deyil”. Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Ceyhun Məmmədov deyib.



Onun sözlərinə görə, bu gün Azərbaycan üçün Qərb mətbuatının nə yazması önəmli deyil: ”Çünki bu məlumatlar həqiqəti əks etdirmir. Bizim üçün əsas Azərbaycan xalqının, dövlətin yeritdiyi siyasətdir. Bu barədə olan obyektiv fikirlərdir. Cənab Prezident də haqlı olaraq əsas göstəricinin bu məsələ olmasını xüsusi olaraq vurğuladı və qeyd etdi. Həqiqətən də bu bir reallıqdır. Yəni qərəzli, əsassız məlumatlardansa, belə bir reallıq və yanaşma daha önəmlidir. Bizim dini və ya etnik zəmində heç zaman hər hansı problemimiz olmayıb. Azərbaycandakı erməni azlığının hüquqları və təhlükəsizliyi Azərbaycan Konstitusiyası əsasında lazımınca qorunacaq. Azərbaycanın Qarabağ bölgəsində yaşayan ermənilər hər hansı digər Azərbaycan vətəndaşı qədər bərabər hüquq və təhlükəsizlik zəmanətinə malik olacaqlar”.

Deputat sözlərinə davam edərək bildirib ki, Azərbaycan əsrlər boyu və xüsusən də, müstəqillik dövründə, sözün əsl mənasında, etnik və dini dözümlülüyün, birgəyaşayışın yüksək standartlarını nümayiş etdirir: ”Azərbaycanda bütün etnik qruplar bir ailə kimi yaşayır və bu, bizim ən böyük sərvətlərimizdən biridir.

Bəzi ölkələrdən fərqli olaraq, Azərbaycan prioritetlərimizə və milli maraqlarımıza cavab verməyən hər hansı işə qoşulmur. Biz müstəqil davranırıq və siyasətimiz müstəqildir. Bu, əsas səbəbdir ki, Azərbaycan davamlı olaraq mətbuatın hədəfindədir, dırnaqarası müstəqil QHT-lərin hücumuna məruz qalır. Qərb mətbuatının Azərbaycan haqqında yazdığı deyil, Azərbaycan xalqının hökumətimizin siyasəti barədə düşündüyü vacibdir.

Müsahibədə həm də müasir Azərbaycanın qurucusu və Çin-Azərbaycan dostluğunun təməlini qoyan Ulu Öndər Heydər Əliyevin fəaliyyətindən danışıldı. Beynəlxalq aləmdə tanınmış siyasətçi, Çin Xalq Respublikasına dostluq münasibəti bəsləyən, Çin xalqının qədim dostu olan ulu öndər Heydər Əliyev Çin-Azərbaycan dotluq münasibətlərinin inkişafında böyük rol oynamışdır.

Bu gün Heydər Əliyevin siyasi kursunu onun layiqli davamçısı İlham Əliyev davam etdirir. Çin dövləti ilə münasibətlər, siyasi, iqtisadi əlaqələr daha geniş inkişaf edir. Çin ilə Azərbaycan coğrafi baxımdan biri-birindən uzaq məsafədə yerləşməsinə baxmayaraq, xalqlarımız arasında tarixən dostluq əlaqələri mövcud olub. Bu münasibətlərin yaranmasında isə tarixi İpək yolu çox vacib rol oynayıb. Bu səbəbdən Çin və Azərbaycan arasında əlaqələr qədim tarixə malikdir.

Xalqlarımızın onilliklərdən bəri davam edən dostluq əlaqələrini, eləcə də, Çin və Azərbaycanın dövlət rəhbərlərinin bütün sahələrdə əməkdaşlığı inkişaf etdirmək istiqamətində səylərini nəzərə alaraq tam əminliklə söyləmək olar ki, bu dostluq münasibətləri bundan sonra da uğurla davam etdiriləcək və xalqlarımızın rifahının yaxşılaşmasına xidmət edəcəkdir”.

***Ləman Sərraf***

# USAİD rəhbərinin təxribat xarakterli bəyanatında SÜRREALLIQ

***Təxribat xarakterli bəyanatlar Ermənistanla Azərbaycan arasında nəzərdə tutulan sülh müqaviləsi ilə bağlı məsələlərə heç də müsbət təsir etmir, əksinə, prosesi ləngidir və qarşısını almağa xidmət edir. Təəssüf ki, müxtəlif ölkələrin və təşkilatların nümayəndələrinin bir sıra təxribat xarakterli bəyanatlarının ardınca USAİD-in rəhbəri Samanta Pauerin tviti də yer alıb və təxribat xarakteri ilə digərlərindən seçilmir. Amma görünən odur ki, Pauer öz ermənipərəstliyi ilə digərlərindən seçilir, hansı ki, onun belə bir mövqeyini ABŞ Beynəlxalq İnkişaf Agentliyinin rəhbərinə heç də yaraşdırmaq olmur.***



Samanta Pauerin öz tvitində dövlət katibi Blinkenin fikirlərini təhrif olunmuş şəkildə qeyd edərək, bundan istifadə etməsi isə ikrah doğurur və buna görə öz ölkəsində belə narazılıqla qaşılanmalıdır. Çünki dövlət katibinin fikirlərini təhrif etmək, öz bildiyi, yaxud istədiyi kimi ifadə etmək narazılığa səbəb olmaya bilməz. “Dağlıq Qarabağda ərzaq təhlükəsizliyinin olmaması və dərman çatışmazlığı çox narahatlıq doğurur. Laçın dəhlizi Dağlıq Qarabağ əhalisinə həyati əhəmiyyətli yüklərin çatdırılması üçün vacibdir. Mən dövlət katibi Blinkenin dəhliz vasitəsilə kommersiya və humanitar ləvazimatların sərbəst hərəkəti ilə bağlı çağırışına qoşuluram”, - deyə qeyd edən Pauer məhz Blinkenin ifadələrini tamamilə fərqli şəkildə ifadə edərək öz ermənipərəst mövqeyini bir daha ortaya qoyub.

Xatırlatmaq yerinə düşərdi ki, xanım Pauer təzəliklə ermənipərəst olmayıb və dəfələrlə ədalətsiz şəkildə öz dırnaqarası “mövqeyini” açıq-aşkar şəkildə göstərib. Hələ bu ilin yanvarında, daha dəqiq desək, Laçın yolunda eko-fəalların aksiyası başladıqdan bir ay sonra Pauer eyni ilə indiki kimi bir tviti ilə diqqəti cəlb etmişdi. “Bir aydan çoxdur ki, Laçın dəhlizi ilə nəqliyyat bağlanıb. Kommersiya daşımaları və humanitar yardımların Dağlıq Qarabağa sərbəst şəkildə daxil ola bilməməsi humanitar böhranın baş vermə ehtimalını hər gün artırır. Dəhliz boyu sərbəst hərəkət bərpa edilməlidir”, - deyə qeyd edən Pauerin şəxsən sözügedən məsələ ilə bağlı da hansı mövqedə olduğu hələ onda da bəlli idi. İş orasındadır ki, ABŞ Beynəlxalq İnkişaf Agentliyi kimi bir qurumun rəhbərinin tvitləri real deyil, sürreal səslənir. Necə olur ki, altı ay bundan əvvəl, onun dili ilə desək, “humanitar böhran” hələ də davam edir, amma bircə nəfər də erməni oldüyü qeydə alınmır? “120 min erməni acından ölür”, deyə haray-həşir salan ermənilər niyə indi orada eyni sayda erməni əsilli insanın qaldığını iddia edirlər və o zaman da, indi də eyni şəkildə çıxış edən USAİD rəhbərinin düşüncə, mövqe baxımından ermənilərdən fərqi nədir?

USAİD rəhbəri görünür ki, heç xislət baxımından da ermənilərdən fərqlənmirmiş. O, eyni ilə tipik bir erməni kimi dövlət katibinin fikirlərini öz istədiyi kimi əvəzləməyi özünə rəva bilibsə, deməli, həmin fikrimizdə haqlıyıq. Fakt budur ki, dövlət katibi Blinken malların sərbəst hərəkətinə çağırış etməyib və hər halda, bu hərəkəti sırf Laçın yoluna bağlamayıb. “Dünən mən Azərbaycan Prezidenti Əliyevlə Dağlıq Qarabağda pisləşən humanitar vəziyyətlə bağlı dərin narahatlığımızı ifadə etmək məqsədi ilə danışdım. Birləşmiş Ştatlar bütün tərəfləri davamlı sülh razılaşmasına nail olmaq üçün dialoqu davam etdirməyə çağırır”, - deyə bəyan edən Blinkenin fikirlərinə Pauer özü istədiyi şəkildə, istədiyi rakursda istinad edib və tviti də buna müvafiq şəkildə olub. Məsələ burasındadır ki, Qarabağda humanitar vəziyyətin pisləşməsi deyilən halın baş verib-verməməsindən asılı olmayaraq, Blinken sadəcə olaraq, narahatlıq barədə fikir ifadə edib. Blinken, əgər həmin o humanitar vəziyyətlə bağlı pisləşmə varsa belə, bunu Azərbaycan tərəfinin hərəkətləri ilə əlaqələndirməyib axı. Amma USAİD rəhbəri dövlət katibinin fikirlərini istədiyi kimi istifadə edərək, hətta istinad belə edərək, tamamilə başqa şəkildə, başqa rakursda yanaşma ilə çıxış edib və tviti də bu baxımdan erməniperəstliyini bir daha təsdiqləyir.

Ermənistan tərəfinin davam edən təxribatları, xüsusən də, Laçın Sərhəd Buraxılış Məntəqəsinə qarşı təxribatları barədə, eləcə də erməni tərəfinin humanitar yüklərinin daşınması üçün Ağdam-Xankəndi marşrutundan istifadə etməkdən imtina etdiyi barədə dövlətimizin başçısının Blinkenin diqqətinə çatdırması ilə onsuz da məsələnin nə yerdə olduğu barədə ABŞ dövlət katibi məlumatlanmışdı və “humanitar vəziyyət”, yaxud da, “blokada” dediklərinin siyasi manipulyasiya olduğu haqda çoxdan doğru qənaətə gəlmişdi. Təsadüfi deyild ki, dövlət katibi Blinken “Azərbaycan və Ermənistan arasında sülh müqaviləsi ilə bağlı müzakirələrə ABŞ-ın davamlı dəstəyini ifadə edərək, Laçın dövlət sərhəd-keçid məntəqəsindən və digər alternativ yollardan keçmənin vacibliyinə, sərhədlərin qorunmasının vacibliyinə toxunub və qeyd edib ki, danışıqlarda müsbət impuls var.

Göründüyü kimi, dövlət katibi Blinken tərəfləri dialoqu davam etdirməyə çağırmaqla kifayətlənib. Amma Samanta Pauer dövlət rəsmilərinin bəyanatlarını sərbəst şəkildə, özü də öz istədiyi formada şərh edib və ümid edirik ki, buna görə Ağ Evdə töhmətlə üzləşməli olacaq. Hər halda Ağ Ev üçün də bəllidir ki, Samanta Pouer ermənilərin dəyirmanına su tökmək üçün əldən-ayaqdan gedir. Məsələ burasındadır ki, USAID sıradan bir təşkilat deyil, ona görə də Pauerin belə bir erməniperəst mövqeyi təsadüfi ola bilməz. Təbii ki, ola bilsin, bu təşkilat ABŞ-ın hazırkı administrasiyasında müəyyən dairələrin mövqeyini əks etdirir.

Onu da qeyd edək ki, ABŞ-ın hərəkətlərinin geosiyasi motivləri nə olursa olsun, rəsmi Bakı siyasətini sırf öz milli maraqlarına uyğun qurur. Məhz həmin bu milli maraqlar da USAID-in Azərbaycandakı fəaliyyətini dayandırmağı qəti surətdə diktə edir. Hazırda bir sıra sahələrdə yardım göstərmək adı altında ayrı-ayrı ölkələrin daxili işlərinə fəal şəkildə müdaxilə edən bu struktur, eyni zamanda, vətəndaş cəmiyyəti institutlarının yaradılmasına yardım etmək adı altında dövlət çevrilişləri və məxməri inqilablar planlarını həyata keçirir. Bu təşkilatın 2023-2025-ci illərdə müxtəlif ölkələrdə “vətəndaş cəmiyyəti” yaratmaq üçün 9,5 milyard dollar vəsait ayırması da təsadüfi sayıla bilməz. Məsələ burasındadır ki, 1991-ci ildən Azərbaycanda da fəaliyyət göstərən USAID-in bəyan edilmiş missiyası inkişaf etməmiş və ehtiyacı olan ölkələrə dəstək olmaqdır. Ola bilsin ki, həmin təşkilatın Azərbaycanda 1990-2000-ci illərdəki fəaliyyəti hardasa başa düşülən idi. Amma indi iqtisadi cəhətdən inkişaf etmiş Azərbaycanda bu təşkilatın fəaliyyəti sual altındadır. Ümumiyyətlə, bir halda ki, Azərbaycan beynəlxalq miqyasda yardım məsələlərində də iştirak edirsə və yardımın donoru kimi çıxış edirsə, deməli, USAİD artıq ölkəmizlə vidalaşmalıdır. Ən təzadlı məqam isə odur ki, vidalaşmaq əvəzinə, həmin təşkilatın rəhbəri üstəlik, qeyd etdiyimiz həmin o erməniperəst mövqeyini sərgiləyən tviti ilə gündəmə gəlir.

Yuxarıda qeyd olunanlar bir daha onu deməyə əsas verir ki, həqiqətən də USAİD-in Azərbaycandakı fəaliyyətinə ölkəmizdə heç bir zərurət yoxdur. Bununla belə Bakı ofisində 200-ə yaxın əməkdaşının çalışdığı təşkilat ölkədə fəaliyyətini hələ də davam etdirir. Bir tərəfdən də həmin təşkilatın təhbəri erməniperəst mövqe sərgiləyir. Bunu gizlətmir də. Açıq-aşkar şəkildə, özü də nümayişkəranə şəkildə göstərir də. Buna dəstək demək olarmı? Olmaz. Deməli, həmin təşkilatın ölkəmizdə fəaliyyətinə son qoyulmalıdır, özü də Pauerin çılğın təxribat xarakterli bəyanatından sonra təcili şəkildə buna nail olmaq gərəkir. Amerikanın dövlət büdcəsindən maliyyələşən agentliyin rəhbərinin bu cür özbaşına davranışına ABŞ prezident administrasiyası tərəfindən ictimai reaksiya verilməsi də tam yerinə düşərdi və Cənubi Qafqazda uzunmüddətli sülhün bərqərar olmasına Vaşinqtonun yardım etmək niyyətinin səmimiliyini nümayiş etdirərdi. Əgər hələ də bunu müşahidə etmiriksə, deməli, həmin təşkilatın ölkəmizdə fəaliyyətinə son qoyulması tam məntiqi olardı.

***İnam Hacıyev***

TƏHLİL

# Tofiq Yaqublu Xaçaturyanın vəkili rolunda...



Azərbaycanın dağıdıcı müxalifətinin açıq şəkildə xarici maraqlı dairələrin təmsilçisi rolunda çıxış etməsi cəmiyyətdə olduğu kimi, partiyalar daxilində də ciddi konfliktlərin yaranmasına səbəb olub. Ciddi qarşıdurmalar aşağılarla yuxarılar arasında dərin uçurum yaradıb. Məhz bu uçurum yeni istefaların, qopmaların baş verməsinə gətirib çıxarıb. Böhranlı ağır vəziyyəti dəyişmək üçün müxalif liderləri müxtəlif addımlar atır, qərarlarla çıxış edir, açıqlamalar verirlər. Hətta dağıdıcı müxalif partiyaların rəhbərliyinə yeni simalar cəlb etməklə, müasir çağırışlara uyğun addımlar atdıqlarını nümayiş etdirirlər. Amma nə yazıqlar ki, əksər hallarda o şəxslər şanssız olurlar, nəinki cəmiyyətdə, ümumilikdə, baş vurduqları siyasət aləmində hörmət və izzət sahibi ola bilmədiklərindən uğursuzluğa düçar olub, kor-peşman əski mövqelərinə qayıdırlar.

### Müxalifətə qoşulan hansısa şəxs Əli Kərimlidən, Tofiq Yaqubludan, Cəmil Həsənlidən və digərlərindən nəyi öyrənə bilər?

Meydana siyasi reallıqları düzgün dərk edən və xaricdən asılılığı olmayan yeni gənc liderlər çıxmalıdır. Lakin bugünkü reallıqda müxalifət düşərgəsində bunu görmək və ya "yeni simaları" cəmiyyətə təqdim etmək mümkün deyil. Çünki siyasi arenaya çıxan yeni simalar indiki korlanmış müxalifət funksionerlərinin cərgəsində əriyərək, sıradan çıxır və ya elə onların bir tayı olurlar. Müxalifət patiyası sırasına qoşulan hansısa şəxs Əli Kərimlidən, Tofiq Yaqubludan, Cəmil Həsənlidən və digərlərindən nəyi öyrənə bilər? Sözügedən şəxslər dövlətçiliyə qarşı çıxan, milli maraqlar təhdid edən şəxslərdir. T.Yaqublu elə bir zibil yoxdur ki, onun altından çıxmasın. 2013-cü ilin yanvarında İsmayıllı hadisələrini qızışdıranlardan biri də T.Yaqublu və digərləri idi. O zaman Baş Prokurorluq və Daxili İşlər Nazirliyinin birgə məlumatında deyilirdi ki, İsmayıllı iğtişaşları zamanı vəziyyəti gərginləşdirən səbəblərdən biri kimi Müsavat partiyası sədrinin müavini Tofiq Yaqublu və REAL Hərəkatının sədri İlqar Məmmədovun İsmayıllıya "səfəri" göstərilir. İ.Məmmədov və T.Yaqublu İsmayıllıya gedərək rayon sakinləri arasında polisə müqavimət göstərmək, heç kimə tabe olmamaq, nəqliyyat vasitələrinin yolunu bağlamaq kimi yönələn çağırışlar etmişlər. Bu qanunazidd əməllər istintaq yolu ilə sübuta yetirildi və hər iki iğtişaşçı layiq olduqları cəzanı aldılar. Lakin sonrakı mərhələdə dövlətimiz böyük humanistlik göstərərək onların vaxtından əvvəl azadlığa çıxmalarına yardımçı oldu.

### T.Yaqublu ya erməni lobbisindən maliyyə yardımları alır, ya da elə V.Xaçaturyanın əmisi uşaqlarından biridir

Gözləmək olardı ki, T.Yaqublu və İ.Məmmədov səhvlərindən nəticə çıxararaq xalqın istək və tələblərinə uyğun fəaliyyət yolu tutacaqlar. Ancaq "eşşək batdığı palçığa ikinci dəfə də batar" məsəlinə uyğun olaraq T.Yaqublu və İ.Məmmədov adətlərini və xarakterlərini dəyişmədilər. T.Yaqublu torpaqlarımızın işğaldan azad edilməsindən sonra erməni maraqlarına uyğun çıxışlar etməyə başladı. Hətta erməni caniləri Koçaryan, Sarkisyan, Ohanyan, Artunyan və digərləri kimi revanşist açıqlamalar səsləndirir. Utanıb, çəkinmədən, həyasızcasına "Zəngəzur dəhlizi Azərbaycan dövlətinin avantürasıdır" və ya "Bölgədə sabitliyin yaranması üçün Azərbaycan dövləti Qarabağdakı ermənilərə status verməlidir" kimi fikirlər səsləndirir. Xocalı rayonunun Meşəli canilərindən olan Vaqif Xaçaturyanın həbsindən sonra T.Yaqublu daha çox əndişələnməyə başlayıb. O, Vaqif Xaçaturyanın hüquqi məsuliyyətə cəlb olunmasından danışarkən "Azərbaycan istintaqı və məhkəməsi tamamilə siyasiləşib və haqlı olaraq onlara nə ölkəmizdə, nə də dünyada etimad yoxdur", - deyə bildirib.



Bu, onu göstərir ki, T.Yaqublu ya erməni lobbisindən maliyyə yardımları alır, ya da elə V.Xaçaturyanın əmisi uşaqlarından biridir. Bu şəxs iddia edir ki, o, birinci Qarabağ müharibəsi iştirakçısıdır. Əgər həqiqətən də o, müharibə iştirakçısıdırsa, ermənilərin vəhşiliklərini, qəddarlıqlarını əyani şəkildə görüb, həm də onun şahidi olub ki, müdafiəsinə qalxdığı Vaqif Xaçaturyan kimi canilər azərbaycanlıları qoca, uşaq, qadın fərq etmədən amansızlıqla qətlə yetiriblər, Xocalıda, Meşəlidə, Kərkicahanda və digər ərazilərimizdə dünyada analoqu olmayan soyqırımı aktları törədiblər. T.Yaqublu bunun fonunda erməni vəhşilərinin müdafiəçisi rolunda çıxış etməklə heç də müharibə iştirakçısı olmadığını nümayiş etdirir. Olsa-olsa o çəpərin arxasında dayanıb, müharibə gedən ərazilərə boylanan insanlardan ola bilər. V. Xaçaturyan kimilər isə layiq olduqları cəzanı mütləq və mütləq alacaqlar. Buna T.Yaqublu və onun ermənipərəst dostları əmin olsunlar.

**İ.ƏLİYEV**

# Çimərlikmi, zibillikmi, anlamadım...



Mətanət Məmmədova

***Şəhərimizdə yayın qızmar günlərindən xilas dəniz və çimərliklərdədir. Elə ki, yayın ortası gəlib çıxdı, ta havanın istisinə dözmək mümkün olmadı, insanlar üz tutur çimərliklərə. Dəniz və çimərlik həm sağlamlığımıza, həm də istirahətimizə xidmət edir. Bunu hər kəs şüurlu şəkildə anlayır. Bəs belə isə çimərliklərin təmizliyinə necə, riayət edə bilirikmi?***

Bu günlər Bilgəh çimərliyində gördüyüm mənzərələr heç də insanların buradan səmərəli istifadə etdiklərindən söhbət açmırdı. Ətrafdakı zibilliklər hərdən buranın çimərlik olduğunu unutdururdu. Elə ətrafı seyr etdikcə də düşünürdüm ki, insanlar görəsən nə üçün təbiətə, gözəlliklərə bu qədər düşmən kəsilib? Haraya gediriksə, oranı vuran edib qayıdırıq. Hansı ki, təbiət bizim ən gözəl istirahət yerimizdir. Lakin bizim ona münasibətimiz əsl düşmən münasibətidir.

Meşəyə getsək, orada, bağa getsək, orada, dağa, getsək, orada, çimərliyə getsək, orada elə bir "iz" qoyuruq ki, bizdən sonra gələnlər həmin "mənzərələrə" baxmaqdan doymur.

Elə Bilgəh çimərliyi kimi... İnsaf üçün deyək ki, ətrafda istirahət üçün müəyyən şərait yaradılıb. Yaxın məsafələrdə tullantı qabları qoyulub. Lakin tullantıları bu qabların içərisinə atanlar yəqin ki, çox az saydadır ki, onlar qabların içərisində deyil, ətrafdadır. Çimərliyə aparan yoldakı pilləkənlərin ətrafını gözlülər olsun, görməsin. Baxdıqca belə qənaətə gəlmək olur ki, keçənlər buraya nə isə bir tullantı atmadan getməyiblər. Bu səbəbdən də burada qalaq-qalaq zibilliklər yaranıb. Bu zibilliklər isə ətrafdakı ağacların qurumasına səbəb olub. Və o da maraqlıdır ki, hansısa aid təşkilatın bu zibillikdən yəni heç xəbəri yoxdurmu?

Adam baxdıqca, ürək ağrısı keçirir. Burada digər ölkələrdəki istirahət yerlərindəki kimi nə şəkil, nə də video çəkmək mümkün deyil. Çünki telefonu hansı səmtə çevirirsən çevir, çirkab kameraya yaxalanır və elə bir görüntü yaradır ki, çəkməyə peşman olursan.

Pilləkənin zibillik olan sağ və sol tərəfinin üfunətindən isə burada baş çatlayır. Bu, hələ çimərliyə aparan yoldur. Çimərliyin özündə isə vəziyyət heç də buradan geri qalmır. Çünki insanlar tullantıları özlərinə əziyyət verib bir qədər aralıdakı qablara atmır. Yer-yurd, ətraf zir-zibil, tullantıdır. Gözünün qarşısındaca yeyib, qabığını ayaqlarının altına atan, bundan əsla xəcalət çəkməyən insanlar var...

Turizmin inkişafı üçün dövlətimiz tərəfindən bir-birinin ardınca tədbirlər həyata keçirilir. Lakin aid təşkilatlar öz üzərinə düşən vəzifələrin nədən ibarət olduğunu dərk edirlərmi? Çimərliyə apardığımız qonaqlara və bura üz tutan turistlərə istirahətdən çox, zibillikləri təqdim etməyimizin fərqindəyikmi?

Düşünürəm ki, bu barədə əsla düşünən yoxdur. Nə biz özümüzdən utanıb ətrafı zibilləməkdən çəkinirik, nə qonaqlarımızdan utanırıq, nə də ki, aid təşkilatlar vəzifələrinin bu cür icrasından utanırlar. Turistləri isə əsla düşünən yoxdur ki, onlar gəlib burada hansı mənzərə ilə qarşılaşırlar. Sadaladıqlarımızdan tək birini dərk etsək, inanıram ki, özümüzü tərbiyə də edə bilərik. Lakin hələlik gördüyümüz mənzərələr bunların heç biri haqqında düşünmədiyimizin göstəricisidir.

Dünyada ölkələr var ki, əhalisi su qıtlığından olmazın müsibətləri ilə qarşılaşır. İçməli su bir yana, məişət üçün suyu kilometrlərlə kənardan daşıyıb gətirirlər. Biz isə əlimizin uzandığı qədər məsafədə olan bu təbiət gözəli dənizin qədrini bilmirik, təbiətə zərərdir ki, vururuq. Deməli, biz çox halda bu gözəllikləri haqq etmirik. Bu barədə düşünsək, pis olmaz.

# "Azərbaycan ailələrinə sonsuzluq pandemiyadan çox təsir edib"

"Son illər dünyada, o cümlədən, Azərbaycanda sonsuz ailələrin sayı elə sonsuza qədər artır. Bir çox inkişaf etmiş ölkələr bununla ələqədar çoxdan dövlət proqramları qəbul ediblər. Bu və digər formada sonsuzluğun aradan qaldırılması və yaranmaması üçün ailə mərkəzləri, beyin mərkəzləri araşdırmalar aparır, akademik kitablar, məqalələr yazılır. Təəssüflər olsun ki, Azərbaycanda son illər bununla ələqədar heç bir ciddi tədqiqat aparılmayıb". Bu sözləri SİA-ya açıqlamasında Yeni Yazarlar və Sənətçilər İctimai Birliyinin sədri, kitabxana.net – Mir Cəlal Paşayev adına Milli Virtual Kitabxananın təsisçisi, yazıçı-kulturoloq Aydın Xan Əbilov deyib.

Onun sözlərinə görə, Azərbaycan ailələrinin böyük əksəriyyəti şaiyələrə, türkəçarəyə daha çox inanır, nəinki rəsmi səhiyyə nailiyyətlərinə: "Ona görə də azərbaycanlı ailələrə sonsuzluq pandemiyadan daha çox təsir edib. Son dövrlərdə gənclərin qida rasionuna nəzarət etməmələri, yarımfabrikatlar istehlak etmələri, oturaq həyat tərzi keçirmələri, soyuq havada modaya uyaraq mini yubka, cırıq şalvar geyinmələri, energetik və spirtli içkilərdən kifayət qədər çox istifadə edilməsi, eləcə də ekoloji mühitin pozulması cavan ailələrə öz mənfi təsirini göstərir. Bütün bunlar da sonsuzluğa aparır.

Dövlət qurumlarının bu baxımdan zəifliyi və TƏBİB-in bu yöndə apardığı araşdırmaların azlığı ona gətirib çıxartdı ki, artıq müxtəlif klinikalar, xəstəxanalar və ailə mərkəzləri süni mayalanma ilə bağlı həm xidmət göstərməyə, həm də ekspert rəyləri ilə cəmiyyətdə çıxış etməyə başladılar".

Ekspert sözlərinə davam edərək bildirib ki, son zamanlar süni mayalanma ilə yanaşı, gənc anaların təbii doğuş etmək istəməmələri, əməliyyatla dünyaya gəlmiş uşaqların hərtərəfli inkişafı üçün zədələnmənin baş verməsi, əlillərdən ibarət uşaq ordusunun cəmiyyətdə böyük bir probleme çevrilməsinin şahidi oluruq: "Süni mayalanma ilə bağlı dünyanın bir çox ölkələrində həm tibbi, həm etik, həm də ictimai diskussiyalar var idi. Lakin sonda artıq cəmiyyət və dövlətlər qəbul etdi ki, süni mayalanma tibbin ən son nailiyyətlərindən biridir və ondan qorxmaq lazım deyil. Əksinə onu cəmiyyətin etik, milli və mənəvi dəyərlərinə uyğunlaşdırıb ailələrin dağılmasının ən böyük səbəblərindən biri olan uşaqsızlığı aradan qaldırmaq lazımdır. Ona görə də süni mayalanmaya normal baxmaq lazımdır. Hesab edirəm ki, süni mayalanma ilə bağlı dövlət proqramı olmalıdır. Hətta bu yöndə İcbari Tibbi Sığorta tərəfindən ödənişsiz süni mayalanma xüsusi bir istiqamət olaraq inkişaf etdirilməlidir".



**Ləman Sərraf**



# Müharibə Rusiya ərazisinə keçir

## *Volodimir Zelenski Moskvanın dağıdılması ilə bağlı hədəflərini açıqladı*

***2022-ci ilin fevranın 24-dən başlayan Rusiya- Ukrayna müharibəsi getdikcə daha amansız və dağıdıcı xarakter almaqdadır. Müharibənin uzanması yeni insan ölümlərinin, dağıntıların artmasına, qaçqınların sayının çoxalmasına səbəb olur. Siyasətçilər isə müzakirələrlə müharibəni dayandırmağa cəhd etmirlər. Nəticədə Ukraynanın şəhərləri, qəsəbələri bombalanır, hər gün yüzlərlə insan öldürülür, şikəst edilir.***

Artıq verilən məlumatlara görə, 18 milyona yaxın insan Ukraynanı tərk edib, onların sayının bir qədər də artacağı proqnozlaşdırılır. Hər iki tərəf özünü haqlı hesab edir. Rusiya tərəfi Ukraynada ölkənin denazifikasiyası və demilitarizasiyası üçün xüsusi əməliyyat keçirdiyini bəyan edir. Ukrayna isə suveren dövlətin ərazisinə soxulub, insanları öldürüb, dağıntılar törətməklə rəsmi Moskvanın müharibə cinayətləri törətdiyini qeyd edir. Ukrayna prezidenti açıq şəkildə bəyan edib ki, Rusiya qoşunlarını ərazisindən çıxarıb, vurduğu zərəri ödəməyənə qədər savaşın dayandırılması mümkün olmayacaq. Söz yox ki, V.Zelenskini amiranə fikir ifadə etməyə NATO-nu hərbi-siyasi dəstəyi həvəsləndirir. Çünki NATO-nun dəstəyi olmasa idi, Ukraynanın uzun müddətə Rusiya qarşısında duruş gətirəcəyi inandırıcı deyil. 2022-ci ilin fevralında Rusiyanın tammiqyaslı işğalı başlayandan bəri ABŞ-ın Ukraynaya hərbi yardımının ümumi məbləği artıq 43,7 milyard dolları ötüb. Ötən həftə ABŞ Müdafiə Nazirliyi Ukraynaya növbəti 400 milyon dollarlıq hərbi yardım paketini açıqlayıb.Yardıma, xüsusilə, Patriot və NASAMS sistemləri və HIMARS sistemləri üçün əlavə döyüş sursatları, Stinger zenit sistemləri, tank əleyhinə Javelin sistemləri, 32 Stryker zirehli personal daşıyıcısı, 155 mm və 105 mm-lik artilleriya mərmisi daxildir. Bundan əlavə, ABŞ hərbi yardım paketinə TOW raketləri, Hornet pilotsuz uçuş sistemləri, Hydra-70 təyyarə raketləri, ”taktiki aeronaviqasiya sistemləri”, maneələri dəf etmək üçün partlayıcı sursatlar, 28 milyondan çox atıcı silah və qumbaraatan, gecə görmə qabiliyyəti və termal görüntüləmə sistemləri, eləcə də ehtiyat hissələri və təlim sursatları.

### Müharibə daha amansız xarakter alır

ABŞ-la yanaşı, Avropa ölkələri də Ukraynaya hərbi yardımlarını əsirgəmirlər. Lakin buna baxmayaq, Rusiya əvvəlcədən müəyyənləşdirdiyi hücum taktikasından geri çəkilmir. Əksinə, demək olar ki, bəzi ərazilərdə üstünlüyü ələ alır. Avqustun 1-dən 2-ə keçən gecə Rusiya tərəfi Kiyevdə, eləcə də Kiyev və Odessa vilayətlərində bir neçə partlayışlar həyat keçirib. Kiyevin meri Vitali Kliçko Ukrayna paytaxtında baş verən partlayışlar nəticəsində tələfat və dağıntıların olmadığını bildirib. Bu arada şəhər hərbi idarəsinin rəisi Sergey Popko bildirib ki, bir neçə parça uşaq meydançasına düşüb, rayonlardan birində qeyri-yaşayış binası yanıb. Ukrayna prezidenti Volodimir Zelenski avqustun 2-nə keçən gecə baş verən partlayışlardan sonra ölkənin cənubunda “əhəmiyyətli” dağıntıların qeydə alındığını





deyib: “Təəssüf ki, ziyan var. Ən əhəmiyyətliləri ölkənin cənubundadır”. Ukrayna Prezidenti Volodimir Zelenski onu da bildirib ki, Rusiyanın təcavüzü döyüş meydanında iflasa uğradı: “Bu gün Rusiya rəhbərliyinin bir-iki həftə davam edəcəyini gözlədiyi ”xüsusi hərbi əməliyyat”ın başlanmasından 522-ci gün ötür. Ukrayna güclənir. Tədricən müharibə Rusiya ərazisinə, onun simvolik mərkəzlərinə və hərbi bazalarına geri qayıdır. Bu, qaçılmaz təbii və tamamilə ədalətli prosesdir. Lakin biz şüurlu olmalıyıq, çünki keçən il olduğu kimi, bu qış da rusiyalı terrorçular bizim enerji sektorumuzu vura bilərlər. Kritik obyektlərə zərbə endirə bilərlər”.

### Ukrayna silahlı qüvvələri Belqoroda və Voronoje hücumlar təşkil ediblər

V.Zelenskinin Rusiyanı hədələməsinin ardınca Ukrayna silahlı qüvvələri Belqoroda və Voronoje hücumlar təşkil ediblər, eyni zamanda, Moskvaya pilotsuz zərbə dronları ilə hücum təşkil olunub. Bu barədə Rusiya Müdafiə Nazirliyi məlumat yayıb. Məlumatda qeyd edilib ki, Rusiya hava hücumundan müdafiə sistemləri Moskva hava məkanını keçməyə çalışan bir neçə PUA-nı vurub. Ukrayna Silahlı Qüvvələri son sutka ərzində Belqorod vilayətinə 80-ə yaxın mərmi atıb və pilotsuz uçuş aparatlarından bir neçə partlayıcı qurğu atıb. Məlumatda o da vurğulanır ki, avqustun 1-nə keçən gecə Ukrayna Silahlı Qüvvələri pilotsuz katerlərdən istifadə edərək Qara dəniz donanmasının gəmilərinə uğursuz hücum cəhdi edib: “Rusiya Silahlı Qüvvələri (SQ) Luqansk Xalq Respublikası (LXR) ərazisində gedən döyüşlər zamanı çoxlu sayda NATO silahını ələ keçirib. Kubok kimi əldə edilən hər şey öyrənilir və sənədləşdirilir, daha sonra onun gələcək taleyi müəyyənləşən anbarlara göndərilir.Rusiya hərbçiləri Xerson vilayətində İRİS-T hava hücumundan müdafiə sistemini məhv ediblər.

İki qayıq və on ukraynalı hərbçi də məhv edilib. Rusiya Federasiyasının Müdafiə Nazirliyi bildirib ki, çərşənbə axşamı, avqustun 1-nə keçən gecə Ukrayna Silahlı Qüvvələri (AFU) Bosfor boğazına doğru hərəkət edən Rusiyanın mülki nəqliyyat gəmilərinə hücum etmək üçün üç yarımdalma pilotsuz qayıqdan istifadə etməyə cəhd edib.

Rusiya Silahlı Qüvvələri KXDR-də Ukrayna Silahlı Qüvvələrinin Dəniz Piyadaları Korpusunun sursat anbarını məhv edib. Rusiya hava hücumundan müdafiə sistemi 16 HIMARS raketi və 21 APU pilotsuz təyyarəsini ələ keçirib. Rusiya hava hücumundan müdafiə qüvvələri Xerson vilayətində Ukraynaya məxsus Mi-24 helikopterini məhv edib. Ukrayna Silahlı Qüvvələrinə məxsus helikopter Dnepr çayının sağ sahilində Mixaylovka kəndi yaxınlığında vurulub”. Bu arada uzun müddət aralıqda görünməyən Rusiya Federasiyası Silahlı Qüvvələrinin (SQ) Baş Qərargah rəisi, ordu generalı Valeri Gerasimov Zaporojye istiqamətindəki komanda məntəqələrindən birinə baş çəkdiyi qeyd edilir.

Bu da onu göstərir ki, qiyamçı Priqojinin hərəkələrindən sonra kənarda dayanıb gözləmə mövqeyində olan Gerasimova yenidən etimad göstərilib və o, xüsusi səlahiyyətlər almaqla müharibə bölgəsinə göndərilib. Müharibə Araşdırmaları İnstitutunun hesabatında qeyd olunur ki, avqustun 1-də Gerasimov Qərbi Zaporojye vilayətində irəli komandanlıq məntəqəsini təftiş edib və Ukrayna əməliyyatları və ərazidəki Rusiya müdafiəsi haqqında videobrifinq keçirib: “Bu video Gerasimovun iyunun 24-də Vaqner PMC-nin yaradıcısı Yevgeni Priqojin tərəfindən təşkil edilən üsyandan sonra ilk ictimai çıxışlarından biridir və Rusiya Müdafiə Nazirliyinin Gerasimovun teatr komandiri rolunu vurğulamaqda davam etdiyini göstərir”. Bundan əvvəl bəzi Rusiya mənbələri Vaqner üsyanından sonra Ukraynada hərbi əməliyyatların komandiri postunda Gerasimovu general-polkovnik Mixail Teplinskinin əvəzlədiyini iddia etmişdi. Bununla belə, ISW qeyd edib ki, onlar müvafiq şayiələri yoxlaya bilməyiblər və Gerasimovun Rusiya Silahlı Qüvvələrindəki mövqeyini nominal olaraq qoruyub saxlaya biləcəyinə inanırlar. ”MN-nin videoyazılarında Gerasimov Ukraynanın cənubda əks-hücum əməliyyatının sektorlarından birində Rusiyanın müdafiə əməliyyatlarının memarı kimi göstərilir. Bu rol əvvəllər Ukraynadakı Birləşmiş Qüvvələr Qrupunun keçmiş komandan müavini, ordu generalı Sergeyə aid edilirdi. Surovikin və 58-ci Birləşmiş Ordunun (Cənub Hərbi Dairəsinin) keçmiş komandiri general-mayor İvan Popov, Gerasimovla qarşıdurma və RF Nazirliyində iyerarxiyaya riayət edilməməsi səbəbindən 28 iyun və 15 iyulda baş vermiş ehtimal olunan işdən çıxarılana qədər. Müdafiə Nazirliyi”, ISW hesabatında deyilir.

### Polşa müharibə astanasında

Valeri Gerasimovun yenidən etimad qazanaraq əsas rolda çıxış etməsindən sonra Polşanın narahatlığı bir qədər də artıb. Polşanın Milli Müdafiə Nazirliyi çərşənbə axşamı axşam iki Belarus helikopterinin Polşanın hava məkanını pozduğunu təsdiqləyib. Polşa Müdafiə Nazirliyi Polşanın hava məkanının sərhəd yaxınlığında təlimlər keçirən helikopterlər tərəfindən pozulduğunu iddia edir - Minsk bu təlimlər barədə Varşavaya əvvəlcədən məlumat verib. “Sərhəd keçidi Bialovieza şəhəri ərazisində çox aşağı hündürlükdə baş verib ki, bu da radar sistemlərinin onu aşkarlamasını çətinləşdirib. Buna görə də bu gün səhər saatlarında Polşa Silahlı Qüvvələrinin Əməliyyat Komandanlığı kommunikedə məlumat verib. Polşanın radar sistemləri Polşanın hava məkanının pozulması hallarını qeydə almayıb”, - deyə agentlik izah edib. Hadisəyə cavab olaraq Polşanın milli müdafiə naziri Mariuş Blaşçak sərhəddə hərbçilərin sayının artırılması və əlavə qüvvə və vasitələrin, o cümlədən döyüş helikopterlərinin yerləşdirilməsi barədə göstəriş verib.

Polşa da insidentlə bağlı NATO-nu məlumatlandırıb və hadisəni izah etmək üçün Belarusun müvəqqəti işlər vəkilini Xarici İşlər Nazirliyinə çağırmaq qərarına gəlib. Xatırladaq ki, “Vaqner” adlanan qruplaşmanın yaraqlıları bir müddətdir Belarusda olub, Rusiyada üsyan cəhdindən sonra oraya köçüblər. Polşa tərəfi dəfələrlə “Vaqneritlər”in Polşa üçün təhlükə törətdiyini vurğulayıb, Belarus-Polşa sərhədinin mühafizəsini gücləndirib. Ötən gün Polşanın Baş naziri 100 ”Vaqnerit”in Suwalki dəhlizi adlanan yerə - Polşa-Litva sərhədi boyunca şərti hərəkət etdiyini rəsmən elan etdi. Bu kimi hərbi təlatümlər onu deməyə əsas verir ki, hər an Polşa- Belarus qarşıdurması baş verə bilər. Bu isə NATO-nun müharibəyə cəlb edilməsi və Rusiyanın müharibənin önündə çıxış etməsi demək olar. Nəticənin arzuolumaz proseslə müşahidə ediləcəyi şübhəsizdir. Çünki müharibə iştirakçıları nüvə silahına malik dövlətlərdir. Tərəflərdən biri məğlubiyyətini həzm edə bilməyəcəyi təqdirdə, nüvə silahını işə sala bilər ki, bu da dünyanın sonu ola bilər.

**İ.ƏLİYEV**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Uşaq və gənclərin fiziki və mənəvi inkişafı" istiqaməti çərçivəsində hazırlanıb.***

# Uşaqların təməl qidası kimi, niyə narahat edir?

*Körpələri yaradılışın ən möcüzəvi qidasından məhrum edirlər*



***BMT-nin Uşaq Fondu (UNİCEF) və Səhiyyə Nazirliyinin birgə təşkilatçılığı ilə hər il ölkəmizdə avqust ayının 1-dən 7-dək "Ümumdünya ana südü ilə qidalandırma həftəsi" keçirilir. Bu tarix ana südü ilə qidalandırmanın qorunması, təşviqi və dəstəklənməsi üçün Ümumdünya Səhiyyə Təşkilatı (ÜST), UNİCEF, dövlət siyasətçiləri və digər təşkilatlar tərəfindən 1990-cı ilin avqust ayında imzalanan "Inocenti Deklarasiyası"nın xatirəsinə həsr edilir.***

## Uşaqları süni qida ilə tənbəlləşdirirlər

Ana südü hər körpənin təməl qidası olmalıdır, amma təəssüf ki, hazırda çox körpə bundan məhrum edilir. Ona görə "edilir" deyirəm ki, bir çox ana özü könüllü şəkildə övladını ana südündən məhrum edir, süni uşaq qidası ilə qidalanmasına səbəb olur. Halbuki Ümumdünya Səhiyyə Təşkilatı (ÜST), bütün dünya həkimləri, hətta müqəddəs kitablarda belə körpənin iki il ana südü ilə qidalanması vacib və mütləq hesab edilir.



Qeyd edək ki, doğuşdan sonrakı ilk günlərdə süd vəziləri zülal və mineral maddələrlə zəngin, tərkibində çoxlu miqdarda İgA, az miqdarda yağ və karbohidrat olan ilk südü -molozivo istehsal edir, həkimlər bu südü körpənin ilk peyvəndi adlandırırlar və hər körpənin mütləq molozivo ilə qidalanmasını vacib sayırlar. Xəstəxanalarda isə çox zaman körpəni bundan məhrum edərək anaya ilk südün formalaşmasının 1 həftə çəkəcəyini deyirlər. Təcrübəsiz ana da inanır və südü formalaşanadək körpəsinə süni uşaq qidası verir. 1 həftə bu qidanı yeyən körpə isə əmmə refleksini itirir, tənbəlləşir və heç vaxt ana südü əmmək istəmir.

## Ana südü həyatımızı xilas edir

UNICEF-in məlumatına görə, ana südü ilə qidalanmayan uşaqlarda ölüm nisbəti qidalananlara nisbətən 4-6 dəfə çoxdur. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatlarına görə, qida çatışmazlığı 5 yaşa qədər uşaq ölümlərinin 7 faizinə səbəb olur və bunun təxminən yarısının əsas səbəbidir. ÜST bildirir ki, əmizdirən qadınların nisbəti yüksək olarsa, ana südü hər il 800 000-dən çox insan həyatını xilas edəcək.

Körpə ilk 6 ayda yalnız ana südü ilə (susuz) qidalanmalı, 6 aydan sonra əlavə qidalara keçsələr belə, ən azı 2 yaşa qədər və daha sonra ana südü ilə qidalanmalıdırlar. Ana südü ilə qidalanan körpələrdə allergik xəstəliklər, 1 və 2 tip diabet, iltihablı bağırsaq xəstəlikləri, hipertoniya, xərçəng, allergiya, astma, piylənmə, dağınıq skleroz, diş quruluşunun pozğunluqları və bəzi psixi xəstəliklər daha az rast gəlinir. Ana südü ilə qidalananların təhsildə uğur qazandıqları da məlumdur. Üstəlik, əmizdirmə təkcə körpəyə deyil, həm də anaya, ölkə və ailə iqtisadiyyatına, ətraf mühitə öz töhfəsini verir.

## Azərbaycanda ana südü ilə qidalandırma faizi dəhşətlidir

Azərbaycanda yeni doğulanların ana südü ilə qidalandırılma statistikası ən son 2021-ci ilə aiddir. Ölkəmizdə yenidoğulanların 82,9 faizi (hər min nəfərə) ana südü ilə qidalanır. Onlardan 3 ayına qədər yalnız ana südü ilə qidalananlar 58,2 faiz təşkil edir. 6 ayına qədər ana südü qəbul edən körpələr 68 faizdir. Onlardan yalnız ana südü ilə qidalananlar isə 39,2 faiz təşkil edir.

12 ayına qədər ana südü ilə qidalananlar 46,4 faiz, 1,5 yaşına qədər ana südü ilə qidalananlar 16,9 faiz, 2 yaşa qədər ana südü ilə qidalananlar 8,7 faizdir. Bu, olduqca təhlükəli rəqəmdir.

Qeyd edək ki, ana südü ilə qidalanan yenidoğulan körpələrin sayı (hər min nəfərə) 2010-cu ildə 77.9 faiz, 2011-ci ildə 74.5 faiz, 2012-ci ildə 83.5 faiz, 2013-cü ildə 86.5 faiz, 2014-cü ildə 93. 2 faiz, 2015-ci ildə 90.3 faiz, 2016-cı ildə 95.2 faiz, 2017-ci ilə 89.7 faiz, 2018-ci ildə 82.8 faiz, 2019-cu ildə 82.9 faiz təşkil edib.



Ağıllı analar və tənbəl analar

Pediatr Şahanə Yadigarlı deyir ki, əgər hansısa pediatr uşağa süni qida verilməsini məsləhət görürsə, bu, həmin həkimin savadının aşağı olmasının göstəricisidir: "Pediatr analara ancaq onu tövsiyə etməlidir ki, ilk altı ayadək övladını yalnız ana südü ilə qidalandırsın, ana südünü hansı yollarla artırsın. Altı aydan sonra isə ana südü ilə yanaşı, əlavə qidalar da vermək olar ki, bu da bir çoxunun başa düşdüyü kimi süni uşaq qidaları deyil, yumurta sarısı, yulaf, qarabaşaq, manna (buğda yarması) və digər sıyıqlardır. Mən analara həmişə mağazalarda satılan hazır yox, ev şəraitində hazırlanan qidaları məsləhət görürəm. Amma təəssüf edirəm ki, tənbəl analarımız çoxdur, alma püresini belə hazır alırlar. Ağıllı analar isə uşaqlarına konservantlarla konservləşdirilib uzunmüddətli istifadəyə yararlı olan qablaşdırılmış uşaq yeməkləri vermirlər".

Həkim deyir ki, anaların südü ola-ola doğum evlərində pediatrlar analara süni qidalar təklif edir, çox qadın da savadsızlıqdan bunu məcburi hesab edir: "Reseptlərə ən bahalı uşaq qidaları yazılır. Yanıma uşağını müayinəyə gətirən qadınlar var ki, baxıram südü olduğu halda süni qida verir uşağa. Alternativ qidalanma olduqda anaların südü quruyur, üstəlik, doğum evindən çıxıb evə gedəndən sonra da süni uşaq qidaları satan firmalar analardan əl çəkmir, tez-tez zəng edib uşağın qidalanması ilə maraqlanırlar. Bu, həmin firmaların həkimə pul ödəməsi deməkdir".



Məlumat üçün süni uşaq qidası ilə qidalanan ailənin büdcəsini əks etdirən kiçik bir qiymət araşdırması etdik. Friso uşaq qidası hazırda 27 manata, Friso Frisopep adlı növü isə 31 manata təklif edilir. Hipp Komfort 21, Smilac uşaq yeməyi növlərindən asılı olaraq 31- 41, Hipp 16, Humana 18, Kabrita 100 manat civarında qiymətə satılır. Əldə etdiyimiz məlumatlara görə, ölkəmizdə təxminən 1 yaşadək olan 100 mindən artıq körpə süni uşaq qidası yeyir.

## Qərb niyə ana südündən qorxur?

Amerikalı yazıçı Florens Villiams özünün "Breasts" (Süd vəziləri) adlı kitabında ana südündən imtina etmənin "səbəbləri"ni yazanda bir çox ölkədə etiraz doğurdu. Kitabın "müəllifi" iddia edirdi ki, yaradılışından bəri insanın təməl qidası hesab edilən ana südünün tərkibində zəhərli maddələr var. Öz südünü bir laboratoriyada yoxladan jurnalist yazır ki, onun südündə reaktiv təyyarənin yanacağının tərkibində olan maddə, müxtəlif kimyəvi maddələr, hormonlar üçün qəbul edilmiş dərmanların qalığı və bu kimi xeyli sayda maddə aşkarlanıb. Amma maraqlıdır ki, o kitabında silikondan istifadə etdiyini qeyd etməyi "unudub". Çünki kitab sifarişli yazılıb, milyonlarla uşaq süni uşaq qidası ilə qidalandırılmalı, işbazların bazarı çiçəklənməlidir axı...

Sadəcə maraq üçün qeyd edim ki, bir neçə il əvvəl israilli pornoulduz Orit Foksun döşünü dişləmiş ilan öləndə məlum oldu ki, aktrisanın döşündə silikon var. Əgər silikonun zəhəri ilanı belə öldürürsə, o zaman onun ana südünə verdiyi zərər təsəvvür belə edilə bilməz.

## Ana südü körpənin haqqıdır

Ana südü əmən uşaqlarda miningit, qulaq infeksiyaları, revmatizm, əsəb problemi, immun çatışmazlığı da olmur, orta qulağın iltihabını belə ana südü sağalda bilir. Bundan əlavə döş əmən uşaqlar çox az xərçəng xəstəliyinə tutulma riski daşıyırlar, onlar yaşıdlarına nisbətdə daha az diabetə yoluxurlar.

Ana südü hər körpənin haqqıdır, onu bu nemətdən məhrum etməyə heç bir ananın haqqı yoxdur. Hamiləlikdə sağlam qidalanın ki, övladınızın təməl qidası bol olsun, onu yalnız biznes maraqları güdən işbazlardan, süni qidalarla genefondumuzu dağıtmağı qarşısına məqsəd qoyan böyük güclərin təsirindən qoruyasınız. Hər yeri zəbt etmiş süni qidaların reklamlarındakı "biz sizin övladınızı düşünərək ən yaxşı qidanı hazırladıq" kimi cümlələrə aldanmayın. Unutmayın ki, heç kim sizin övladınızı sizin qədər düşünə bilməz.

***Lalə Mehralı***

ARAŞDIRMA

# Turistlər niyə bölgələrə üz tutmur?

***“Bu gün Bakıda insanların kifayət qədər çox olması burada olan iş yerlərinin çoxluğu ilə bağlıdır. Turistlərin də daha çox Bakıya gəlməsi isə strateji olaraq bizə sərf etmir. Əslində, regionlarda olan hava limanlarının yetərincə fəaliyyət göstərməsi, orada qiymətlərin münasib olması xarici turistlərin bölgələrə daha çox səfər etməsini təmin etmək üçün bir sıra addımlar atılmalıdır. Məsələn, Birləşmiş Ərəb Əmirliklərindən Qəbələyə birbaşa reyslər var idi. Turistlər Bakıya gəlmədən həmin bölgədə istirahət edə bilirdilər”. Bu sözləri SİA-ya açıqlamasında turizm eksperti Əziz Şiriyev deyib.***



## EKSPERT AYDINLIQ GƏTİRDİ

Bakıda olan turistlərin regionlara az səfər etməsi ilə bağlı danışarkən ekspert bildirib ki, regionlarda istirahət, iaşə və digər obyektlərdə onlayn sistemlər işləmir: “Bölgələrdə olan müəssisələrdə daha





çox nağd ödəniş mövcuddur. Turistlərin isə əksəriyyəti ödənişi kart vasitəsilə həyata keçirirlər. Bu da onlar üçün müəyyən çətinliklər yaradır. Daha bir səbəb isə yol infrastrukturu ilə bağlıdır. Bildiyiniz kimi, hazırda İsmayıllı-Qəbələ istiqamətində yol təmirtikinti işləri gedir. Təbii ki, bu da regionlara səfərlərin az olmasına təsir edir”.



Ekspert qeyd edib ki, regionlarda olan xidmət və kadr məsələləri də turizmə təsir göstərən məqamlardandır: “Düzgün xidmətin göstərilməsi və keyfiyyətli kadrların olması servisin doğru şəkildə qurulmasına gətirib çıxarır. Bu da müştərilərin razı qalmasına səbəb olan amillərdəndir”.

*Ləman Sərraf*


## “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Gənclərin diqqətinə: güzəştli kreditlərin verilməsi qaydaları dəyişildi

**Gənclər Fondunun vəsaitindən gənclərə güzəştli kreditlərin verilməsi Azərbaycan Mərkəzi Bankının lisenziya verdiyi və Fondun Müşahidə Şurasının müəyyən etdiyi meyarlara uyğun olan müvəkkil kredit təşkilatı vasitəsilə həyata keçiriləcək. SİA xəbər verir ki, bu, Prezident İlham Əliyevin bu gün təsdiq etdiyi ”Azərbaycan Respublikasının Gənclər Fondunun vəsaitindən istifadə, o cümlədən Fondun vəsaiti hesabına güzəştli kreditlərin verilməsi Qaydası”na edilən dəyişikliklərdə öz əksini tapıb.**




Dəyişikliyə əsasən, Fond kredit götürənin güzəştli kredit üzrə əsas borcu və hesablanmış faizləri müvəkkil kredit təşkilatına ödəmə müddəti ilə müvəkkil kredit təşkilatının həmin vəsaiti Fonda köçürməsi müddətinin üzləşməsini aparmaq və ya bunun üçün Mərkəzi Banka müraciət etmək hüququna malikdir. Fond bu müraciəti etdikdə Mərkəzi Bank fəaliyyət istiqamətinə uyğun olaraq müvəkkil kredit təşkilatında yoxlama apararkən bu məsələni də araşdırır və nəticəsi barədə Fonda məlumat verir.

## Binəqədidə qardaş bacını öldürüb

Avqustun 2-də saat 13:00 radələrində Binəqədi qəsəbəsində evlərin birində 1965-ci il təvəllüdlü Əfəndiyeva Məlahət Vaqif qızının yumruq zərbəsindən aldığı xəsarətlərdən ölməsi barədə polisə məlumat daxil olub. Bu barədə SİA-ya Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib. Bildirilib ki, cinayət əməlini törətməkdə şübhəli bilinən onun qardaşı 1967-ci təvəllüdlü Əfəndiyev Azər Vaqif oğlu polisə gələrək təslim olub.

İlkin məlumata görə, cinayət hadisəsi şəxsi münasibətlər zəminində baş verib. Araşdırma aparılır.



*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4000**